# Xalq qəzeti

Xalqın qəzeti!

№ 248 (30364) 15 noyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Günün sözü

**Prezident İlham ƏLİYEV:**

**Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.**

# Azərbaycan–Özbəkistan: əməkdaşlığın ortaq hədəfləri

## Prezident İlham Əliyev qardaş ölkənin investisiya, sənaye və ticarət nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri Laziz Kudratovu qəbul edib.**

Dövlətimizin başçısı, ilk növbədə, Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısının yüksək səviyyədə təşkil olunduğunu qeyd edərək, həmin tədbir çərçivəsində Özbəkistan Prezidenti ilə görüşünü məmnunluqla xatırladı.

Dostluq və qardaşlıq münasibətlərimizin gündəliyinin çox geniş olduğunu və müxtəlif istiqamətləri əhatə etdiyini deyən Prezident İlham Əliyev iqtisadi, sənaye, o cümlədən sənaye kooperasiyası, kənd təsərrüfatı və digər sahələrdə nəzərdə tutulan birgə layihələrin önəmini qeyd etdi.

Dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfəri zamanı qarşıdakı illərdə əməkdaşlığın gündəliyi və qarşıya qoyulan məqsədlərə nail olunması ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi.

Laziz Kudratov, ilk növbədə, Özbəkistan Prezidentinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq Azərbaycan və Özbəkistan prezidentləri arasında mövcud olan dostluq münasibətlərinin əməkdaşlığımızın keyfiyyətcə yeni səviyyəyə qalxması üçün möhkəm əsas yaratdığını bildirdi, hər iki dövlət başçısının qarşılıqlı səfərlərinin və görüşlərinin strateji əlaqələrimizin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.

Laziz Kudratov vurğuladı ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizin əldə etdiyi iqtisadi uğurlar və əhalinin rifah halının daha da yaxşılaşdırılması Özbəkistanda böyük sevinc doğurur. Qonaq, eyni zamanda, qeyd etdi ki, özbək xalqı Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunmuş hərbi paradı qürur hissi ilə izləyib. Azərbaycan Prezidentinin qətiyyəti və möhkəm iradəsi, uğurlu siyasəti nəticəsində tarixi ədalətin bərpa edilməsinin mümkün olduğunu vurğulayan Laziz Kudratov Şuşa və Füzuliyə səfərləri zamanı orada gedən böyük yenidənqurma və bərpa işlərinin şahidi olduğunu dedi.

Görüşdə sənaye kooperasiyası, iqtisadi, ticari, nəqliyyat, logistika əlaqələrinin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı.

# Borrel kimin dili ilə danışır?

## Avropa İttifaqı Cənubi Qafqazda yeni reallığı qəbul etməkdə sancı çəkir

**Azərbaycanın 2020-ci ildə 44 günlük müharibədə, 2023-cü ildə 23 saatlıq antiterror tədbirində qazandığı qələbələri gözü götürməyənlərin sıraları getdikcə genişlənməkdədir. Sözdə sülh vasitəçiliyini yerinə yetirdiyi görüntüsünü yaradan Avropa İttifaqının, onun ardınca ABŞ-ın son vaxtlar bu sırada xüsusi canfəşanlığı nəzərdən yayınmır.**



Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Jozep Borrellin son bəyanatı "köhnə dünya"nın ermənipərəst dairələrinin Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallığı qəbul etməkdə çətinlik çəkdiklərinin bariz təzahürüdür. Otuz illik işğal dövründə Azərbaycan dövlətinin və xalqının iradəsini sındırmağı bacarmayan həmin dairələr indi buna gecikmiş və nəticəsiz cəhdlər göstərməkdədir. Onların ali komissarları Borrellin dili ilə söylədikləri rəsmi Bakı üçün hansısa əhəmiyyət yükünə malik deyil.

Jozep Borrellin bəyanatını Aİ-nin "mülki müşahidəçi" adı altında Ermənistan ərazisinə göndərdikləri kəşfiyyatçı-desant fəaliyyətinin məntiqi davamı kimi qəbul etmək daha doğru olar. Borrell Aİ Şurasının Brüsseldə keçirilmiş toplantısından sonra bəyan edib ki, onlar Ermənistana Avropa Sülh Fondundan yardım edilməsi ilə bağlı imkanları araşdıracaqlar. Ardınca isə reallıqdan uzaq, qeyri-obyektiv, qərəzli açıqlamasında Azərbaycana Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulmasının qəbuledilməz olması ilə bağlı xəbərdarlıq edib. Hətta bunun Bakı üçün yaxşı nəticələnməyəcəyini deməyə də özündə cəsarət tapıb. Siyasi təhdid göz qabağındadır.

Fransa başqa olmaqla, Aİ-yə üzv bir çox ölkələrin irqi, dini, etnik ayrı-seçkilikdən əziyyət çəkdikləri bir yana, erməni separatizmini dəstəkləmələri, sadəcə, heyrət doğurur.

*(ardı 2-ci səhifədə)*



# Keşişlərin əlində alətə çevrilən dövlət – Ermənistan

**"Mənim hesabatımın bütün məqsədi "artsax"ın simasını, onun mahiyyətini və şəxsiyyətini qoruyub saxlamaqdan ibarətdir". Bunu "artsax" erməni eparxiyasının yeni başçısı yepiskop Vrtanes Abramyan bəyan edib. Əgər hərtəfəli və ciddi iş aparılmasa, bunun "çox çətin proqram olacağını" deyən Abramyan bu halda ermənilərin identikliyini itirəcəklərini bildirir, buna yol verməmək üçün "artsax eparxiyasının" buraxılmasının yolverilməz olduğunu önə çəkir.**

Azərbaycana qarşı geniş cəbhədə "xaç yürüşü"nü təşkil etməyə çalışan Ermənistanın kilsə dairələri bu məkrli niyyətlərini reallaşdırmaqdan ötrü yeni təxribatlara əl atmaqdadırlar. Yuxarıda qeyd etdiyimiz kimi, "artsax eparxiyasının" qorunub saxlanmasından danışan yepiskop Abramyan bundan sonra onun funksiyasında dəyişiklik aparılacağını bəyan edib.

*(ardı 4-cü səhifədə)*

# İrəvanın sülhdən yayınma tezisləri

**Ermənistanın Azərbaycana qarşı yeni müharibə və hərbi hücum niyyətində olmadığını nümayiş etdirmək imkanı var. İrəvan əvvəlki konstruktiv danışıqların ruhuna uyğun dialoq mühitinə üstünlük verməli və sülh müqaviləsi imzalamalıdır. Lakin buna razı deyil, ABŞ-ı və Qərb strukturlarını təminatçı qismində prosesə qoşmaq məramı güdür. İkincilərin isə Cənubi Qafqazla bağlı öz "planları" var.**



Bəli, Ermənistan öhdəliklərindən yayınmaqdadır. Ölkənin baş naziri, xarici işlər naziri və başqa rəsmi şəxsləri bütün platformalarda anti-Azərbaycan ritorikasına üstünlük verirlər. Onların müharibə əleyhinə səsləndirdikləri fikirlər və digər vədlər vaxt udmaqdan başqa bir şey deyil. Vaxt udmaq isə silahlanaraq güclənmək üçündür. Əslində, Qərb dünyasının istədiyi də budur ki, güclü Ermənistan Azərbaycanla danışıqlar müstəvisində yeni şərtlər və reallıqlar ortaya qoymağı bacarsın. Bunu etsin ki, ölkə Cənubi Qafqazdan Rusiyanı sıxışdırmaq planlarında möhkəm dayansın. Möhkəm dayanmağın mükafatına gəldikdə, sirr deyil ki, bu, Azərbaycana qarşı ərazi iddiası və Qarabağ avantürizminin davamıdır.

Hazırda erməni siyasi isteblişmenti Azərbaycanın guya Brüsseldə görüşlə bağlı təşəbbüsləri rədd etdiyi və Moskva formatına üstünlük verdiyi fikrinin aktiv təbliğatını aparır. Mövcud xüsusda ölkəmizin Ermənistan ərazisinə hücum edəcəyi ilə bağlı iddialar da dövriyyəyə buraxılmaqdadır. Baxın, Qərb mediası da məsələyə köklənib. Təsadüfi deyil ki, İtaliyanın "İn Terris" analitik xəbər portalı Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyova təxminən belə bir sual ünvanlayır: Azərbaycanın yaxın gələcəkdə Ermənistanı işğal etmək niyyəti varmı? Cənab Əmirbəyovun cavabını təqdim edirik: "Qətiyyən yox. Bu, son günlər yayılan, mənşəyini tam dərk edə bilmədiyimiz saxta xəbərlərdir".

*(ardı 3-cü səhifədə)*

# Cənub Qaz Dəhlizinin iqtisadi səmərəsi artır




**Avropanın enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizi Azərbaycan qazını "köhnə qitə"yə çatdıran etibarlı enerji marşrutudur. XXI əsrin nəhəng qaz ixracı marşrutunun idarəetməsini həyata keçirən "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti (SGC) 2023-cü ilin ilk yarısını 726 milyon 601 min ABŞ dolları xalis mənfəətlə başa vurub.**

Bu barədə məlumat səhmdar cəmiyyətinin maliyyə hesabatında öz əksini tapıb. Hesabata əsasən, cari ilin ilk 6 ayında "Cənub Qaz Dəhlizi"nin əməliyyat gəlirləri 1 milyard 391 milyon 42 min dollar, satışının maya dəyəri 245 milyon 119 min dollar, ümumi-inzibati xərcləri 164 milyon 254 min dollar, nəqletmə xərcləri 69 milyon 165 min dollar, digər gəlirləri isə 27 milyon 944 min dollar təşkil edib. Eyni zamanda, hesabat dövründə SGC-nin faiz gəlirləri 46 milyon 169 min dollar, asılı müəssisələrdən gəlirləri 34 milyon 811 min dollar, maliyyə xərcləri 284 milyon 79 min dollar, məzənnə fərqindən gəlirləri 2 milyon 746 min dollar, mənfəət vergisi ödəmələri isə 13 milyon 161 min dollar olub.

*(ardı 7-ci səhifədə)*

# Böyük qayıdışın Laçın qaranquşu



**Laçın tarixən Qarabağın Qərbi Azərbaycan səmtdən giriş qapısı sayılıb. Rusiyada Romanovlar səltənətini kommunist düşərgəsinə çevirmiş bolşeviklər əzəli türk torpaqlarında özlərinin Ermənistan oyuncaq rejimini qurmaqla kifayətlənməyib 1923-cü ildə Qarabağın dağlıq hissəsində Azərbaycana tabe olan erməni muxtariyyəti yaradanda bu qapını da DQMV adlanan inzibati qurumun tərkibinə qatmaq istəmişdilər.**

*(ardı 5-ci səhifədə)*

# 2024-cü ilin dövlət büdcəsi də sosialyönümlüdür



**Noyabrın 14-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**

Parlamentin Sədri iclası açaraq ölkə Prezidenti tərəfindən Milli Məclisə daxil olmuş yeni qanun layihəsini gündəliyə daxil etməyi təklif edib. Deputatlar iclasın gündəliyini təsdiqlədikdən sonra "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirələri davam etdirilib.

Müzakirələrdə Milli Məclisin komitə sədrləri və deputatlar çıxış ediblər. Qeyd edilib ki, 2024- cü ilin dövlət büdcəsinin 43 faizini sosial xərclər təşkil edir.

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edildikdən sonra "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihələrinin təqdimatları və müzakirələri birlikdə aparılıb, səsvermə isə ayrı-ayrılıqda keçirilib.

"Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsi ölkə rəhbərinin sosial ədalət və sosial rifah prinsiplərinə xidmət edən ali niyyəti rəhbər tutularaq tərtib edilmişdir. O, qeyd edib ki, fondun 2024-cü il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılıb. Bu, cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat çoxdur.

Orta aylıq əmək haqqının cari ilin sonuna 930 manat təşkil edəcəyinin proqnozlaşdırıldığını deyən komitə sədri bunun da gələn ildə pensiyaların orta hesabla 11 faiz artırılmasını təmin etməyə imkan yaradacağını vurğulayıb.

Sonra M.Quliyev "İşsizlikdən Sığorta Fondunun 2024-cü il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, diqqətə çatdırıb ki, 2024-cü ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur ki, bu da cari ildən 20,3 milyon manat, yaxud 9,3 faiz çoxdur. İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 179,98 milyon manatı, yaxud 75,6 faizi işsizlikdən sığorta haqları üzrə yığımın, 57,95 milyon manatı, yaxud 24,4 faizi isə cari ilin sonuna qədər istifadə olunmamış vəsait hesabına formalaşacaq və bu yığımın 74,8 faizi qeyri-büdcə sektorunun payına düşür.

İclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov çıxış edərək, əhalinin sosial müdafiəsinin gücləndirilməsinin və sosial rifahının yaxşılaşdırılmasının dövlət başçısı tərəfindən həyata keçirilən siyasətin əsas prioritetləri olduğunu deyib.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, bildirib ki, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 246 manatdan 270 manata, əmək qabiliyyətli əhali üçün 261 manatdan 287 manata, pensiyaçılar üçün 199 manatdan 222 manata, uşaqlar üçün isə 220 manatdan 235 manata qədər artırılır.

"Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanunun layihəsində bildirilir ki, gələn il üçün ehtiyac meyarının həddi 24 manat artırılaraq 270 manat nəzərdə tutulur.

Komitə sədri T.Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib.

Müzakirəyə təqdim edilən qanun layihələri səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# XİN: Bizimlə təhdid dili ilə danışmaq qəbuledilməzdir

**Noyabrın 13-də Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirilmiş, regiondakı reallıqları qəsdən təhrif edən ittihamlar tamamilə qeyri-adekvat və qəbuledilməzdir.**

Bu barədə Xarici İşlər Nazirliyinin şərhində bildirilib.

Qeyd edilib ki, Avropa İttifaqının 30 ilə yaxın müddətdə ölkəmizin suveren ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına biganə yanaşması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktını qınamaqdan çəkinməsi fonunda, Ermənistana ifadə olunan dəstək və Azərbaycana qarşı təhdid dolu ifadələr bu qurumun qərəzli siyasətinin və ikili standartlarının bariz nümunəsidir. Aİ Xarici Fəaliyyət Xidmətinin bu və digər bölgələrdə sərgilədiyi riyakar yanaşmalardan da göründüyü kimi, bu qurum yanlış addımların qurbanına çevrilib.

Bununla yanaşı, Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə təşviq etmək üçün heç bir addım atmayan Aİ-nin nümayəndəsinin səsləndirdiyi ittihamlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təhdiddir.

"Bir daha xatırladırıq ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də cari ilin sentyabrında 24 saatlıq antiterror tədbirləri ölkəmizin suveren ərazilərində həyata keçirilib. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim üsullarla öz suverenliyini bərpa edib. Aİ üzv ölkələri aqressiv separatizm meyillərindən əziyyət çəkdiyi halda, Azərbaycanın öz suveren ərazilərində mövcud təhdidlərə qarşı haqlı mübarizəsinə münasibətdə Aİ-nin xarici siyasət qurumunun ölkəmizin ərazisində separatizmi qızışdırması cəhdləri ciddi narahatlıq mənbəyidir. Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri, bölgəmizdə yeni qarşıdurmalara sürükləyən siyasətin təşviq olunmasıdır və bunun məsuliyyəti, eyni zamanda, Aİ-nin üzərinə düşür. Bu məqsədlə, digər sahələrlə yanaşı hərbi potensialın gücləndirilməsini nəzərdə tutan Avropa Sülh Təşəbbüsündən istifadə edilməsi planları bölgədə gərginliyin artmasına xidmət edir. Bir daha xatırladırıq ki, Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkət müsbət nəticələnməməklə yanaşı, adekvat şəkildə cavablandırılacaqdır", – deyə Xarici İşlər Nazirliyinin şərhində bildirilib.

# ATƏT PA: Azərbaycan Qarabağ üzərində öz nəzarətini bərpa edib

**ATƏT Parlament Assambleyasının (PA) prezidenti Pia Kauma və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksen Azərbaycanın Ermənistanla sülh sazişinin yekunlaşdırılması istiqamətindəki səylərini davam etdirməyə sadiqliyini alqışlayıb. Bu barədə ATƏT PA-nın bəyanatında bildirilib.**

Pia Kauma və Kari Henriksenin Azərbaycana səfərləri ilə bağlı təşkilatın yaydığı bəyanatda qeyd olunub ki, səfər çərçivəsində Azərbaycanın siyasi rəhbərliyi ilə Ermənistanla hərtərəfli tənzimləməyə nail olunması istiqamətində müzakirə aparılıb. Bəyanatda Qarabağın Azərbaycanın regionu olduğu vurğulanıb: "Azərbaycana bu gün başa çatan səfəri çərçivəsində ATƏT PA prezidenti Pia Kauma (Finlandiya) və Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Kari Henriksen (Norveç) ölkənin siyasi liderliyi ilə sentyabrda Azərbaycan öz Qarabağ regionu üzərində nəzarətini bərpa etməsindən sonra Ermənistanla tam nizamlamaya nail olunmasına ehtiyac müzakirə edilib. Sülh sazişi və əlaqələrin normallaşmasının irəliyə aparılması üçün konstruktiv iştirak vacibdir".

Bildirilir ki, indi Azərbaycan və Ermənistan arasında tam nizamlanmaya nail olmaq üçün sürət qazanmağın vaxtıdır. Rəsmi Bakının indi davamlı sülhün bərqərar olması naminə əsl liderlik nümayiş etdirmək imkanı var.

Bəyanatda vurğulanıb ki, Azərbaycanın ATƏT PA-da güclü iştirakı regionda çoxtərəfli diplomatiya və dialoq üçün müsbət işarədir.

ATƏT rəsmiləri Azərbaycan tərəfinin etnik ermənilərin geri qaytarılmasına kömək göstərilməsi ilə bağlı təşəbbüsünü alqışlayıblar. Nümayəndə heyəti, həmçinin ərazilərin minalardan təhlükəsizliyini təmin etmək, yenidənqurma və reinteqrasiya sahəsində irəliləmək üçün əhəmiyyətli səyləri yüksək qiymətləndirib, beynəlxalq ictimaiyyəti Azərbaycanda təhlükəsizlik və humanitar vəziyyətin inkişafında iştirakını davam etdirməyə çağırıb.

***XQ***

# Borrel kimin dili ilə danışır?

**(əvvəli 1-ci səhifədə)**

Əslində, Aİ-nin xarici siyasət qurumunun başçısının öz başlarına çarə qılmaq əvəzinə Cənubi Qafqazda separatizmi qızışdırmaq cəhdlərinin arxasında hansı ssenarinin gizləndiyi məlumdur. Ermənistanı silahlandırmağa girişən Fransanın bölgədə sönmüş müharibə ocağını yenidən alovlandırmaq planı da artıq gizli deyil. Okeanın o tayından Kanadanın ardınca ABŞ-ın da bu "beynəlmiləl missiyaya" qoşulmaq arzusu, Aİ-nin Sülh Fondunun Ermənistanda fəaliyyətə başlaması Qərbin Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək cəhdlərinin aşkar təzahürləridir. Deməli, Avropanın bölgədə yarımçıq qalmış işləri varmış. Bu işləri tamamlamaq vəzifəsini boynuna götürənlərin başında məhz Makron Fransasının durduğu hamıya gün kimi aydındır.

***

Azərbaycan XİN Avropa İttifaqının ali nümayəndəsinin bəyanatına cavab verib. XİN-in şərhində deyilir ki, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell tərəfindən Brüsseldə Xarici Əlaqələr Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirdiyi, regiondakı reallıqları qəsdən təhrif edən ittihamları tamamilə qeyri-adekvat və qəbuledilməzdir. Azərbaycan XİN-in yaydığı açıqlamada qeyd edilir ki, Aİ-nin 30 ilə yaxın müddətdə ölkəmizin suveren ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına biganə yanaşması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktını qınamaqdan çəkinməsi fonunda, Ermənistana ifadə olunan dəstək və Azərbaycana qarşı təhdid dolu ifadələr bu qurumun qərəzli siyasətinin və ikili standartlarının bariz nümunəsidir.

Azərbaycan baş diplomatiya idarəsinin şərhində daha sonra deyilir ki, Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə uyğun hərəkət etməyə təşviq etmək üçün heç bir addım atmayan Aİ-nin nümayəndəsinin səsləndirdiyi ittihamlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təhdiddir: "Bir daha xatırladırıq ki, istər 44 günlük Vətən müharibəsi, istərsə də cari ilin sentyabr ayında 24 saatlıq antiterror tədbirləri ölkəmizin suveren ərazilərində həyata keçirilib. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim üsullarla öz suverenliyini bərpa edib. Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri, bölgəmizdə yeni qarşıdurmalara sürükləyən siyasətin təşviq olunmasıdır. Bunun məsuliyyəti eyni zamanda Aİ-nin üzərinə düşür. Bu məqsədlə, digər sahələrlə yanaşı, hərbi potensialın gücləndirilməsini nəzərdə tutan Avropa Sülh Təşəbbüsündən istifadə edilməsi planları bölgədə gərginliyin artmasına xidmət edir".

Azərbaycanla təhdid dili ilə danışmağın qəbuledilməz olduğunun vurğulandığı XİN-in açıqlamasında, eyni zamanda, hər hansı qeyri-dost hərəkətin müsbət nəticələnməyəcəyi ilə yanaşı, adekvat şəkildə cavablandırılacağı da xüsusi olaraq qeyd olunub.

Bəli, Aİ strukturlarının son vaxtlar aşkar ikili standartlı davranışı Qərbin Cənubi Qafqazda sülhə və sabitliyə qarşı yönələn təxribatçı davranışlarından xəbər verir. Bakıya təhdid və xəbərdarlıqlar "seriyası" da bu niyyətlə edilir. Amma Azərbaycanla təhdid dili ilə danışmaq olmaz. Çünki bunun acı aqibətini Hayastan son üç ildə azı üç dəfə dadıb. Deyəsən, indi onun arxalarında gizləndiyi Qərbin uğursuz missionerləri də həmin faydasız yola düşməyə çalışırlar. Cəhd etsinlər, amma adekvat cavablarını alacaqlarını da unutmasınlar.

Nə qədər paradoksal səslənsə də, Ermənistan düşdüyü indiki durumunda da özgələrin ətəyindən yapışaraq, qonşusuna təzyiq göstərmək xəyalına düşüb. Bu, onun üçün heç də təzə yol deyil. Onlar iki əsr "xidmətində" durduqları Rusiyaya arxa çevirib, indi Avropadan imdad diləməklə məşğuldurlar. Bu fakt həm də onu deyir ki, bu toplum heç vaxt müstəqil yaşamağı ya bacarmayıb, ya da istəməyib.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistanın sülhə hazır olması ciddi suallar doğurur

**Sülh sazişi ilə bağlı sənəd iki aydan artıqdır ki, gecikdirilir.**

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"2023-cü il sentyabrın 11-də Azərbaycan tərəfi Ermənistanın cavabının yaxın vaxtlarda təqdim olunacağı ümidi ilə ikitərəfli kanallar vasitəsilə sülh sazişinin 5-ci düzəliş edilmiş variantını müvafiq izahatlarla birlikdə qarşı tərəfə təqdim edib. Bu ilin sonunadək sülh müqaviləsi imzalamağa hazır olduqları barədə ictimaiyyətin bəyanatlarına baxmayaraq, Ermənistan tərəfi sənədin öz variantının təqdim olunmasını iki aydan artıq gecikdirir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, indi bu, tarixi fürsətdir. Xüsusilə Azərbaycanın suverenliyini bərpa etdikdən sonra sülh müqaviləsinin imzalanmasına heç bir maneə yoxdur. Ermənistanın buna nə dərəcədə hazır olması indi ciddi suallar doğurur", – Hikmət Hacıyev qeyd edib.

***XQ***

# İqtisadiyyat və energetika nazirlərinin üçtərəfli görüşü

**Azərbaycan, Özbəkistan və Qazaxıstanın iqtisadiyyat və energetika nazirlərinin iştirakı ilə Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisindən Avropaya elektrik enerjisinin ixracı perspektivlərinin müzakirəsi ilə bağlı üçtərəfli görüş keçirilib.**



Nazirlikdə keçirilən üçtərəfli görüşdə Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi vasitəsilə Avropaya elektrik enerjisinin ixracı perspektivləri müzakirə edilib. Tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıq üzrə razılıq əldə ediblər.

Görüş çərçivəsində ortaq dəyərlərə və tarixə, sıx dostluq əlaqələrinə malik ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişaf etdiyi qeyd edilib. Bu istiqamətdə Azərbaycan, Özbəkistan və Qazaxıstan dövlət başçılarının mütəmadi görüşlərinin xüsusi rolu vurğulanıb.

Qeyd edilib ki, üç ölkənin bərpaolunan enerjinin inkişafı və ixracı ilə bağlı yürütdüyü siyasət Azərbaycana Mərkəzi Asiya ölkələrindən Avropaya elektrik enerjisinin təchizi üzrə körpü rolunu oynamağa imkan verir. Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstanla birgə 4 Qvt elektrik enerjisinin ixracına imkan verəcək Xəzər dənizi-Qara dəniz-Avropa enerji dəhlizinin yaradılması üzərində işləyir. Daha 1 Qvt "yaşıl enerji"nin Naxçıvan-Türkiyə-Avropa marşrutu ilə nəqli nəzərdə tutulub.

Görüşdə bildirilib ki, Qazaxıstan və Özbəkistanın bu dəhlizlərə çıxış əldə etməsi bu ölkələrin elektrik enerjisi bazarlarının inkişafını, yaşıl hidrogen, ammonyakın istehsalı və təchizatı üzrə əməkdaşlığı möhkəmləndirəcək, Orta Dəhliz çərçivəsində enerji təhlükəsizliyi və "yaşıl layihələr" üzrə tərəfdaşlığı gücləndirəcək.

Nazirlər ölkələrin bərpaolunan enerji üzrə potensialını qeyd edərək, alternativ mənbələrdən əldə edilmiş elektrik enerjisinin Avropaya ixracı ilə bağlı layihəyə qoşulmağa hazır olduqlarını bildiriblər. Bu kontekstdə Azərbaycanın enerji sisteminin inteqrasiyasından sonra Qara dənizin dibi ilə yüksək gərginlikli elektrik enerjisi xəttinin çəkilməsi imkanlarının araşdırılmasına maraq ifadə olunub.

Nazirlər "yaşıl enerji"nin ötürülməsi üzrə layihənin inkişafının iştirakçı ölkələrin energetika sistemləri və iqtisadiyyatları arasında əlaqələri möhkəmləndirəcəyini, həmçinin milli energetika sənayelərinə yeni impuls verəcəyini vurğulayıblar.

Görüşün nəticəsi olaraq birgə kommünike imzalanıb. İqtisadiyyat və energetika nazirləri səviyyəsində növbəti görüşün Özbəkistanın Daşkənd şəhərində keçirilməsi gözlənilir.

***XQ***

# YAP nümayəndə heyəti Şimali Kiprdə



**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətində səfərdədir.**

Səfər çərçivəsində noyabrın 14-də "Boğaz şəhidliyi" ziyarət edilib, 1974-cü ildə həyata keçirilən "Barış" hərəkatında şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi dərin ehtiramla yad olunub.

Nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin yaradılmasının 40-cı ildönümü münasibətilə keçirilən təntənəli Cümhuriyyət yürüşündə də iştirak edib.

Bundan sonra Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstünlə YAP nümayəndə heyəti və qardaş Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Bursa millət vəkili Efkan Alanın rəhbərlik etdiyi AK Parti nümayəndə heyəti arasında görüş keçirilib.

Yeni Azərbaycan Partiyasının mətbuat xidmətindən bildirilib ki, görüşdə xalqlarımız və hakim partiyalar arasında əməkdaşlığın əhəmiyyətindən və perspektivlərdən bəhs edilib.

***XQ***

# Azərbaycan–Pakistan hərbi məsləhətləşməsi



**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyətinin Birləşmiş Ərəb Əmirliklərinə səfəri davam edir.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, səfər çərçivəsində Müdafiə Nazirliyinin rəhbər heyəti Pakistan İslam Respublikasının Aviasiya Kompleksinin sədri, aviasiya vitse-marşalı Nadim Axtar Xan ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi, hərbi-texniki və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

***XQ***

# Ermənistan: Qərb dünyası üçün matah, yoxsa matax?

## Avropanın bu ölkəni Azərbaycanla danışıqlarda güclü tərəfə çevirmək istəyi və ...balaca uşağın odla oynaması



**Ermənistan Avropa, ümumən Qərb dünyası üçün əməlli-başlı mataha çevrilib. Erməniləri əzizləmə işinə avropalılar, daha doğrusu, "köhnə qitə"nin aparıcı təşkilatları möhkəm girişiblər. Yəni əvvəl Fransa öndə idi, hazırda Avropa İttifaqı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT canıyananlıqla məşğuldur. Hələ digər xırda-mırda təşkilatları demirik. Onların hamısının adını sıralasaq, uzun bir siyahı alınar.**

Bəli, hazırda dünya üzrə erməni təəssübkeşliyinin fazası həddən artıq yüksəkdir. Görünən budur ki, Ermənistan hakimiyyəti, eləcə də ermənipərəstlər dünyada çəkiyə malik qurumları özlərinin avantürist niyyətlərinə alət etməyi bacarıblar. Amma məsələnin digər tərəfi də var. Əslində Ermənistanınmı, yoxsa Qərb dairələrininmi, hansının yekunda alətə çevriləcəyi maraqlıdır.

Həmişə, bir qayda olaraq, Ermənistan "istifadə edilib". Ölkə prinsip etibarilə ancaq itirməklə məşğuldur. Milli ideoloji identifikliyin rəmzi kimi qiymətləndirilən Qarabağ əldən çıxıb. Başqa nə olsun? Sual ritorikdir. Çünki Ermənistan özünün olmayan hər şeyi itirməyə məhkumdur. Deməli, matahlığın mataxa çevrilməsi labüddür. Bəs, matax nədir? Yazının sonunda məsələyə aydınlıq gətirəcəyik.

***

Beləliklə, Avropa İttifaqı Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi, eləcə də bu ölkənin vətəndaşları üçün viza rejiminin liberallaşdırılması imkanlarını nəzərdən keçirir. Bunu Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell Brüsseldə Aİ Şurasının xarici siyasət idarələrinin rəhbərləri səviyyəsində keçirilmiş iclasdan sonrakı mətbuat konfransında deyib.

***

Məlum olduğu kimi, Ermənistana hərbi yardım məsələsində Fransa daha çox "irəli gedib". Ölkənin zirehli texnikalarının bir qrupu artıq İrəvandadır. Ancaq görünən budur ki, Aİ məsələyə, belə demək mümkünsə, daha fundamental və sistemli yanaşmanın tərəfdarıdır. Bu istiqamətdə baza da var. Söhbət Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan hissəsində fəaliyyət göstərən mülki missiyadan gedir.

Qeyd edək ki, Aİ-nin sözügedən missiyası ötən ilin yanvarından bölgədədir. Onun tərkibinin pensiyada olan alman və fransız polislərindən ibarət olduğu məlumdur. O da məlumdur ki, hələ lap əvvəldən missiyanı hərbiləşdirmək və sayını artırmaqla əlaqədar fikirlər dolaşmaqdadır. Heç şübhəsiz, bu, bir tərəfdən Azərbaycana qarşı yönəlmiş addımdırsa, digər yandan məsələnin anti-Rusiya təmayülü var. Təsadüfi deyil ki, rəsmi Moskva Aİ-nin müşahidəçilərini bölgədə əlavə qıcıqlandırıcılar kimi qiymətləndirmişdi. Əslində bu fikri işlədən Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun yanıldığını söyləmək mümkünsüzdür. Çünki Ermənistan missiyaya güvənərək şərti sərhəddə çoxsaylı təxribatlar törədirdi. Lakin İrəvanın davranışları yekunda onun üçün sərfəli olmayan durum formalaşdırdı.

Amma istənilən acınacaqlı vəziyyət Brüsselə Kremlin "dərin narahatlığına" məhəl qoymamağa və hazırda Qərbin Cənubi Qafqazda əsas tramplininə çevrilən Ermənistanda mövqelərini gücləndirməyə qətiyyən maneçilik törətmir. Müvafiq olaraq, proses İrəvanın Moskvadan ardıcıl şəkildə uzaqlaşması ilə müşayiət olunur. Əslində J.Borrelin haqqında söz açdığı məsələ də Aİ-nin Ermənistan üzərindən apardığı anti-Rusiya ritorikasının davamı kimi xarakterizə oluna bilər. Yəni, noyabrın 13-də Aİ Xarici İşlər Nazirləri Şurasının Brüsseldə keçirilmiş iclasının gündəliyi təsadüfən tərtib edilməyib. Məlum olduğu kimi, gündəlikdə iki başlıca məsələ yer alıb. Bunlardan biri Rusiya-Ukrayna müharibəsidirsə, ikincisi Azərbaycan və Ermənistanla bağlı son hadisələrdir.

Aİ-yə üzv dövlətlərin XİN rəhbərləri ölkəmizin bu ilin sentyabrında həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonrakı mərhələdə bölgədə qərarlaşmış vəziyyəti, eləcə də İrəvan və Bakı arasında münasibətlərin normallaşdırılmasına yönələn səyləri müzakirə ediblər. Toplantının Aİ-nin rəsmi saytında yerləşdirilmiş bəyanatında bildirilib ki, "Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel sabit və davamlı sülhə nail olmaq üçün Ermənistan və Azərbaycan liderləri ilə sıx təmasda olmaqda davam edir". Bundan əvvəl isə tədbirdə haqqında söz açdığımız mülki müşahidə missiyasının genişləndirilməsi planlarından danışılıb.

Maraqlı məqamlardan biri də Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın bildirdikləridir. O deyib ki, Brüsseldə Aİ nümayəndələri ilə danışıqlardan sonra Ermənistan və bu qurum arasında təhlükəsizliklə bağlı yeni sənəd üzərində iş gedir. Deməli, Lavrovun bölgədə "əlavə qıcıqlandırıcılar" kimi qiymətləndirdiyi məsələ daha geniş müstəviyə daşınmaqdadır. Belə bir durum isə istər-istəməz Aİ Şurasının Prezidenti Ş.Mişelin missiyasına zərbə vurur. Çünki onun təmsil olunduğu təşkilat artıq tərəfə çevrilir. Tərəfkeşlikdən söz düşmüşkən, əslində Aİ-nin istər ötən il, istərsə də bu il Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi istiqamətindəki ilk baxışdan səmərəli təsir bağışlayan missiyasından söz açılmır, sanki təşəbbüsdə sınma anı yaşanıb.

***

Əminliklə söyləmək mümkündür ki, sınma anı bu ilin oktyabrında yaşandı. Məlum oldu ki, Ş.Mişelin missiyası mahiyyətcə erməni maraqlarına gizli xidmət üzərində qurulub. Doğrudur, Ermənistanın baş naziri Nikol Paşinyan ötən ilin oktyabrında Praqada, eləcə də bu ilin mayında Brüsseldə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Bu, ilk baxışdan konstruktiv hərəkət kimi qiymətləndirilib. Lakin Aİ-nin məsələni yalnız bu nöqtəyə qədər gətirməyi düşündüyü aşkardır. Deməli, qarşılıqlı şəkildə ərazi bütövlükləri tanınacaq, amma Qarabağ məsələsi necə var, eləcə də saxlanılacaqdı. Yəni, mahiyyətcə ATƏT-in Minsk qrupunun manipulyasiyalarına bənzər davranışlar, davamlı danışıqlar və sair. Hər halda avropalıların ölkəmizin lokal xarakterli antiterror tədbirlərini hesablamadıqları aşkar idi. Elə bu tədbirlərdən sonra Aİ-nin və Ş.Mişelin, obrazlı ifadə etsək, mütərəqqilik kürkünə birə düşdü. Əslində oktyabrdakı Qranada sammiti və həmin toplantı çərçivəsində imzalanmış sənədlər də "qaşınmanın" nəticəsi idi. Haqqında söz açdığımız sınma anı da elə budur.

***

Bəli, Aİ Azərbaycan-Ermənistan sülh gündəliyinə yeni paradiqmalar gətirməyə çalışır. Nəzərə alaq ki, N.Paşinyan və erməni iqtidarının təmsilçiləri həmin məqamları açıqlayaraq Qranada sammitindəki sənədləri ehkamlaşdırmaq yolu tuturlar. Doğrudur, Nikol bunu əvvəlcə açıqdan-açığa bildirirdi, hazırda niyyətini pərdələməkdədir. Məsələn, o, ölkənin ictimai televiziyasına müsahibəsində demişdi ki, Ermənistan üçün Qranadada imzalanmış sənədlərin hər hansı şəkildə korrektəsi yolverilməzdir.

Yada salaq ki, Qarabağ ermənilərinin bölgəyə qayıdışına fokuslanmış həmin sənədlərdə onların hüquq və təhlükəsizliyi məsələsi xüsusi qoyulur və mövcud istiqamətdə ayrıca beynəlxalq mexanizmlərin tətbiqi üzərində dayanılırdı. Faktiki olaraq Azərbaycanın konstitusyon əsasda təklif etdiyi hüquq və təhlükəsizlik meyarları heçə sayılırdı. Bu isə o demək idi ki, Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıması ilə bağlı söylədikləri əhəmiyyətini itirmiş olur.

***

Aİ-nin, eləcə də Fransanın Ermənistana hərbi yardım ritorikası məhz belə bir şəraitdə meydana çıxmış məsələdir. Deməli, ara-sıra bölgədə sülh gözləntisi ilə bağlı söylənilənlər gözdən pərdə asmaqdan başqa bir şey deyil. Ola bilər, avropalılar sülh üçün müharibə məntiqini əsas götürürlər. İndiki durumda rəsmi İrəvan hesab edir ki, yüz nəfərin daxil olduğu Aİ-nin mülki missiyasının uğurlu fəaliyyəti Ermənistanın dövlət sərhədlərini daha etibarlı hala gətirib. Uğurlu fəaliyyət nədir, bilinmir. Ancaq heç kimə sirr deyil ki, bu missiya Ermənistanın təhlükəsizliyindən daha çox, Aİ-nin geosiyasi maraqlarına xidmət edir. Ona görə Brüssel hazırda onun daha da genişləndirilməsini müzakirə edir. Üstəlik, qurum əsas məqsədinin Ermənistanda mövqelərini gücləndirmək olduğunu gizlətmir. "Biz indi gündəmdəki münaqişəni alovlandıra biləcək və eyni zamanda Ermənistanın müdafiəsini və müqavimətini gücləndirməyə kömək edə biləcək məsələləri həll etməyə çalışırıq", - deyən Aİ-nin yüksək səviyyəli diplomatının keçən həftə "Azadlıq" radiosunun erməni xidmətinə bildirdikləri fikrimizin təsdiqidir. İndi məlum olur ki, nə üçün Almaniyanın Xarici işlər naziri Annalena Berbok İrəvana səfəri zamanı Ermənistanın sülhməramlı kimi təqdim olunan xüsusi təyinatlılarının təlimini izləmişdi. Prioritet nədirsə, nəzərdən keçirilən də odur...

***

Qərbin niyyəti nədir? İstər Aİ-nin özü, istər Kanadadan sonra qurumun Ermənistandakı mülki missiyasında təmsilçilik niyyətini ortaya qoyan ABŞ istəyir ki, İrəvanın müdafiə qabiliyyətini və hərbi potensialını gücləndirməklə, onu Azərbaycanla danışıqlar masası arxasında güclü tərəfə çevirsin. Paşinyan administrasiyası üçün güclü olmaq həmin masada əlavə şərtlər irəli sürmək imkanıdır. Elə buna görə də Bakı-İrəvan sülh müqaviləsi yalnız üfiqdə közərməkdədir. Əslində, Qərb məqsədli şəkildə onun imzalanmasını, Cənubi Qafqazdakı vəziyyətin nizama salınmasını ləngidir. Əvəzində Fransa ilə yanaşı Aİ-nin digər ölkələrindən Ermənistana silah tədarükü ilə bağlı məqamlar ön plana çıxır. Onu da bildirək ki, Aİ-nin Ermənistanda hərbi-siyasi mövqelərinin gücləndirilməsi ilə paralel şəkildə İrəvanın Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və MDB strukturlarını faktiki olaraq boykota məruz qoyması həyata keçirilir.

***

Sonda əvvəldə haqqında söz açdığımız matax məsələsinə aydınlıq gətirək. Yada salaq ki, bu ifadəni Ermənistanın Qərb dünyası üçün mataha çevrilməsi, yəni əzizlənməsi kontekstində işlətdik. Matax erməni apostol kilsəsində Allah naminə nəyinsə qurban verilməsidir. Əlbəttə, qurbanvermə xoş niyyətlər üçün nəzərdə tutulmuş ayindir. Oxşar məqamlar digər səmavi dinlərdə də icra olunmaqdadır. Ancaq hazırda Qərbin hərəkətləri Ermənistanı mataxa, yəni qurbana çevirməkdən başqa bir şey deyil və burada hansısa xoş niyyətdən söhbət gedə bilməz. Necə deyərlər, Qərb od verir, İrəvan isə odla oynayır. Ermənistan sanki balaca uşaqdır. Balaca uşaqların isə odla oynaması hansı fəsadlar doğurur, hər kəsə yaxşı məlumdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvanın sülhdən yayınma tezisləri

## Siyasi hakimiyyət və ekspert cameəsi nələri qabardır?

*(əvvəli 1-ci səhifədə)*

Məlumdur ki, haqqında söz açılan məsələ digər ərazilərimizi Naxçıvanla birləşdirən quru yolunun ölkəmiz üçün prioritetliyi müstəvisində irəli sürülür. Əslində Ermənistan da bu əlaqənin olmasında maraqlı görünür. Baş nazir Nikol Paşinyan məqsədini "Dünyanın kəsişməsi" layihəsi şəklində qabardır. Lakin o da məlumdur ki, bu layihə və ona İrəvanın verəcəyi hansısa təminat Bakı üçün yetərli deyil. Ona görə də Azərbaycan Naxçıvana quru yolunun İran ərazisindən keçməsi üzərində dayanır. Heç şübhəsiz, belə bir durum Ermənistanı əvvəllər olduğu kimi, yenə də təcriddə saxlayacaq. Paşinyan administrasiyasında aqibəti yaxşı görürlər və anlayırlar ki, obrazlı desək, qatar gedir. Naçar vəziyyətdə olan, ancaq iddialarından daşınmayan, öhdəliklərindən yayınan rəsmi İrəvan və bütövlükdə hakim erməni siyasi industriyası Azərbaycanın Ermənistanı işğal etmək iddiasına güc verməklə, məsələni gündəmdə saxlamaq istəyir. Əslində səfir Əmirbəyovun bildirdiyi də budur: "Ermənistan regionda təcrid olunmuş vəziyyətdə qalacaq və bu, ermənilərin öz seçimi olacaq. Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur və bu, çox güman ki, Ermənistan tərəfindən qəsdən yayılıb".

Qeyd edək ki, E.Əmirbəyovun bu fikirləri Ermənistanda şantaj kimi də qəbul edilməkdədir. Axı, Azərbaycan Prezidentinin nümayəndəsi bildirib ki, "dəhliz termini sırf iqtisadi-nəqliyyat anlayışıdır". Məsələnin belə qoyuluşu Ermənistana uyğun deyilsə, yol və ya kəsişmə kimi başqa ad seçirsə, deməli, Bakı bunu manipulyasiya kimi qiymətləndirmək hüququna malikdir. Həm də ona görə ki, ortada Ermənistanın baş nazirinin imza atdığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat var. O bəyanat ki, onun doqquzuncu bəndində çox aydın şəkildə Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirəcək yola nəzarətin Rusiyanın Federal Təhlükəsizlik Xidməti tərəfindən gerçəkləşdiriləcəyi göstərilib. Yəni, prinsipial məqam budur və buna görə ölkəmiz İrəvan tərəfindən irəli sürülən "Dünya kəsişməsi" ilə razılaşmamaq hüququnu özündə saxlayır. Digər tərəfdən, otuz il işğalçılıq siyasəti yürüdən ölkənin təhlükəsizlik təminatına niyə etibar edilsin ki? Ermənistan ilk növbədə özünü əməli işi və səmimiyyəti ilə təsdiqləməlidir. Amma nə səmimiyyət var, nə də iş.

Bəli, rəsmi İrəvan Naxçıvanla yoldakı təhlükəsizlik təminatı məsələsinə fərqli don geydirmək yolu tutur. Sanki Azərbaycan Rusiya ilə birləşib Ermənistanı dalana dirəmək niyyətindədir. Ölkənin siyasi dairələri mövcud xüsusda Ukraynadakı müharibə səbəbindən Rusiyanın düşdüyü duruma fokuslanırlar. Onlar elə rəy yaradırlar ki, sanki Bakı inad etməklə Moskvanı acınacaqlı vəziyyətdən çıxarmağı hədəf seçib. Bu baxımdan Rusiyanın Türkiyə ilə quru əlaqəsi yaratmaq üçün dəhliz axtardığı üzərində dayanılır və bildirilir ki, bu, Kremlə Qərbin sanksiyaları altında olan malları Türkiyə və Azərbaycanın dəstəyi ilə idxal etmək imkanı verəcək. Ən əsası isə guya Moskvanın "Zəngəzur dəhlizi"nin Ermənistanın nəzarəti altında olmasının qarşısını almaqdakı məqsədi İrəvanın Rusiyanın sanksiyadan yayınma şəbəkəsinin fəaliyyətinə müdaxilə ehtimalı ilə bağlıdır. Yəni, təxminən belə: Kreml sanksiyalardan yayına bilər, Ermənistan dəhlizə nəzarət etsə, bunun qarşısını alacaq. Göründüyü ki, İrəvanın siyasi dairələri ölkənin vacibliyini əsaslandırmaq üçün hər cür cəfəngiyata baş vurmaqdadır, özlərini Qərbə şirin satmaqdadırlar. Halbuki, üçtərəfli bəyanat imzalananda nə Ukrayna ilə müharibə var idi, nə də Moskva əleyhinə sanksiyalar...

***

Ermənistanın anti-sülh ritorikası ilə bağlı daha bir məqama diqqət yetirək. İstər Azərbaycan Prezidenti, istərsə də ölkəmizin Xarici İşlər Nazirliyi müntəzəm olaraq səkkiz Azərbaycan kəndinin Ermənistanın işğalı altında olmasını qabardır. Görəsən, qabartmamalıdır? Niyəsə, belə yanaşma İrəvanda ölkəmizin sülhdən yayınması kimi qiymətləndirilir. Halbuki Ermənistan üçtərəfli bəyanata uyğun olaraq həmin kəndləri də sözsüz-söhbətsiz geri qaytarmalıdır. Qaytarmır, əvəzində elə



görüntü formalaşdırır ki, Azərbaycanın tələbi Ermənistana hərbi müdaxilə, güc tətbiqi üçün bəhanədir. Əlbəttə, səkkiz kəndin geri qaytarılmayacağı təqdirdə, güc tətbiqi mütləqdir. Necə ki, Qarabağda Azərbaycanın suveren hüquqlarının bərpası üçün antiterror tədbirlərinə gedildi, səkkiz kəndlə də bağlı eyni addımın atılması qanunauyğundur və labüddür. Məsələni əldə bayraq etmək isə reallıqları nəzərə almamaq, mahiyyətdən uzaqlaşmaq və manipulyasiya cəhdidir. Hazırda bunlar Ermənistanın dövlət siyasətinin əsas elementi kimi çıxış etməkdədir. Aİ və bütövlükdə Qərb dünyası isə ölkəni silahlandırmaqla onun yaramaz dövlət siyasətinin davamlılığına siyasi sərmayə yatırmaqla məşğuldur. Deməli, Qərb Ermənistanı illüziya bataqlığına çəkməkdə israrlıdır.

***

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmaması kontekstində erməni siyasi dairələrinin irəli sürdükləri başlıca tezislərdən biri də budur ki, Bakı guya hansısa müqavilə ilə öhdəlik götürmək istəmir. Çünki bu öhdəlik gələcəkdə Ermənistan ərazisini işğal etmək üçün maneçilik törədə bilər. Əslində eyni fikri İrəvana münasibətdə də işlətmək mümkündür. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra Ermənistana barışıq əlini uzadan ölkəmiz olub. İrəvan isə daim sülhdən yayınma yolu tutub. Belə olan halda "Bakı nə üçün Brüssel və ya Vaşinqton formatındakı danışıqları bərpa etmir?" sualı ən azından qoyuluş baxımından yanlışdır. Çünki həmin formatın hazırda ermənipərəstlik klubuna çevrildiyi aşkardır. Belə demək mümkünsə, klubun nizamnaməsi isə bu il oktyabrın 5-də Qranadada rəsmi Parisin patronajlığı ilə keçirilmiş Avropa Siyasi Birliyinin zirvə toplantısında təsdiqləndi. Sənədə N.Paşinyan, Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts, ən əsası isə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel imza atdı. Qeyd edək ki, Azərbaycanın imzasının yer almadığı Qranada sənədlərində Ermənistanın Qarabağ avantürasının davamı üçün baza mövcuddur. Məsələnin qoyuluşu belədir: Qarabağ erməniləri yenidən bölgəyə qayıdacaq, onların hüquq və təhlükəsizliyi beynəlxalq təminatlar vasitəsilə həyata keçiriləcək, Qarabağa BMT sülhməramlıları yeridiləcək. Beləliklə, Azərbaycanın suveren dövlət kimi irəli sürdüyü hüquq və təhlükəsizlik məsələləri heçə sayılacaq. Nəticədə Qarabağ erməniləri xüsusi statuslu təbəqə kimi qarşılanacaq, bu isə gələcəkdə Ermənistanın bölgəyə ərazi iddiası irəli sürməsinə etibarlı zəmin yaradacaq. Tam aydındır ki, Azərbaycan sülhün bu şərtini qəbul etməyəcək və hazırkı məqamda masaya əyləşməyin özü Brüssel formatı kimi təqdim edilən Qranada gündəliyinin sırınması ilə razılaşmaqdır. Bakı buna əsla getməz.

***

Cənubi Qafqazda sülh gözləntisi müstəvisində Ermənistanın irəli sürdüyü manipulyasiyalardan biri də "Qərbi Azərbaycan" ifadəsidir. Məlum olduğu kimi, Azərbaycan Prezidenti, eləcə də dövlətimizin digər rəsmi şəxsləri dəfələrlə bildiriblər ki, Qərbi Azərbaycana qayıdış dinc məqsədli konsepsiyadır. Hətta cənab İlham Əliyev bölgəyə tanklarla deyil, minik avtomobilləri ilə qayıtmaq məsələsindən söz açıb. Bu, nə deməkdir? O deməkdir ki, Ermənistandakı dədə-baba yurdlarından zorla qovulan azərbaycanlıların həmin torpaqlarda yaşamaq hüququ təsdiqlənməlidir. Necə ki, Qarabağ erməniləri bölgədə yaşamaq haqqına malikdirlər, azərbaycanlılar da Ermənistanda mövcudluq hüququnu özlərində saxlamalıdırlar. Bu, heç bir halda ərazi iddiası şəklində interpretasiya edilməməlidir.

Ancaq Ermənistan dövlətinin və siyasi dairələrinin baxışları üçün belə bəşəri məqamlar yaddır. Onlar hər şeyi özlərinin yarımçıq təfəkkürlərinə əsaslanaraq qiymətləndirirlər. Çünki təbiətlərinə işğalçılıq və qəsb elementləri hakimdir. Xarakterlərini heç cür dəyişə bilməyəcək qədər iflicdirlər və bu ifliclik dövlət siyasətinə də təsirini göstərib. Ən böyük həyasızlıq isə budur ki, azərbaycanlıların Qərbi Azərbaycana qaytarılması məsələsini ərazi iddiası kimi qələmə verən erməni siyasilər 1990-cı illərdə gedən azərbaycanlıların guya Ermənistandan təzminat aldıqlarını iddia edirlər. Görəsən, hansı təzminatdan söhbət gedir? Yada salaq ki, həmin azərbaycanlıların hamısını məhv etmək kimi qorxunc daşnak planı olub. Yalnız Spitakdakı dəhşətli zəlzələ bu "niyyətin" gerçəkləşməsinə maneçilik yaradıb...

***Ə.RÜSTƏMOV***
***XQ***

# Suda boğulan saman çöpü də tapmır...

**Ermənistan hökumətinin son aylarda Rusiyadan, o cümlədən Müstəqil Dövlətlər Birliyi və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi qurumlardan uzaqlaşmaq xətti götürdüyü artıq heç kim üçün sirr deyil. Nikol Paşinyanın 2018-ci ilin mayında hakimiyyəti uzurpasiya etməsindən sonra İrəvan-Moskva münasibətlərində vaxtaşırı soyuq küləklər əsirdi. Ancaq həm 2021-ci ilin mayında baş verən və "Qaragöl insidenti" kimi tanınan hadisələr, həm də həmin ilin noyabrın 16-da və 2022-ci ilin sentyabrında sərhədyanı zonada yaşanmış silahlı toqquşma zamanı KTMT-dən umduğu dəstəyi ala bilməməsi Ermənistanın üzvü olduğu hərbi-siyasi blokdan və Rusiyadan uzaqlaşmasına gətirib çıxardı. Nəticədə baş nazir Nikol Paşinyan KTMT-nin ali orqanı olan Kollektiv Təhlükəsizlik Şurasının 2022-ci ilin noyabrın 23-də İrəvanda keçirilən iclasının yekun sənədlərini imzalamaqdan imtina etdi.**

Azərbaycanın sentyabrın 19-da Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyinin bərpası məqsədilə başlatdığı və cəmi bir sutka davam etmiş lokal xarakterli antiterror tədbirlərinə Rusiyanın, rus sülhməramlılarının reaksiyası Ermənistanı əməlli-başlı narazı saldı. Təbii ki, Ermənistanın Rusiyadan və KTMT-dən narazılığı əsassızdır. Çünki Paşinyan hökumətinin üzvlərinin "Azərbaycan təcavüz edir" deyə haray-həşir saldıqları hadisə əslində, ölkəmizin öz sərhədlərinə sahib çıxması idi. Ermənistan tərəfinin həmin iddialarına ən tutarlı cavabı Prezident İlham Əliyev vermişdi. Dövlətimizin başçısı 2021-ci il avqustun 16-da Kəlbəcər rayonuna səfəri zamanı etdiyi çıxışında bildirmişdi ki, biz Kəlbəcər və Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk: "Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Bunu heç kim unutmasın".



Lokal xarakterli antiterror tədbirləri isə beynəlxalq hüquqa uyğun aparılıb. Həmin tədbirlər zamanı mülki insanların yaşadıqları ərazilərə və infrastruktur obyektlərinə zərbələr endirilməyib. Bundan əlavə, Azərbaycan Qarabağ ermənilərinə reinteqrasiya planı təqdim edib. Bu planı qəbul etmək istəməyənlər öz xoşları ilə, könüllü şəkildə çıxıb Ermənistana gediblər. Amma Qarabağda qalan ermənilər də var. Onlara heç kim dəyib-dolaşmır. Ərazidə Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları və Rusiya sülhməramlıları qalmaqda və fəaliyyət göstərməkdədirlər. Əgər hansısa hadisə baş versəydi, həmin faktlar dərhal ictimailəşərdi.

İrəvanda onu da unutmamalıdırlar ki, Azərbaycan antiterror tədbirlərini dünya birliyi tərəfindən tanınmış suveren ərazisində keçirib. Hətta, Ermənistanın baş naziri də Avropa Siyasi Birliyinin 2022-ci ilin oktyabrında Praqada keçirilən I sammitində 86,6 min kvadratkilometrdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Bu ilin mayın 23-də İrəvanda mətbuat konfransı keçirərkən həmin əraziyə Qarabağın da daxil olduğunu bəyan edib. Belə olan təqdirdə hayların Rusiyanın nəyə etiraz etməsini gözlədikləri, yaxud istədikləri anlaşılmır. Bu yerdə müdrik atalarımızın dediyi "pişiyin könlü samanlıqda idi, tazı da qovdu, saldı samanlığa" sözlərini xatırlatmaq, zənnimizcə, yerinə düşər. Məlum olur ki, mahiyyətcə Qərbpərəst olan, milyarder Corc Sorosun yardımı ilə "rəngli inqilab" edərək hakimiyyətə yiyələnmiş Nikol Paşinyan Rusiya ilə ən azı siyasi əlaqələrin səviyyəsini aşağı salmaq üçün bəhanə axtarırmış. İndi isə axtardığı bəhanələri tapıb.

Paşinyanın Rusiyadan uzaqlaşmaq yolunda sonuncu addımı KTMT Kollektiv Təhlükəsizlik Şurasının noyabrın 23-də Minskdə keçiriləcək iclasında iştirakdan imtinasıdır. Dünən Belarus tərəfinin təşəbbüsü ilə Nikol Paşinyanla Prezident Aleksandr Lukaşenko arasında telefon danışığı baş tutub. "Baş nazir Paşinyan Belarus Prezidentinə sessiyada iştirak edə bilməyəcəyi barədə məlumat verib və ümid etdiyini bildirib ki, KTMT tərəfdaşları bu qərarı başa düşəcəklər", – deyə Ermənistan hökumətinin açıqlamasında bildirilib.

Onu da deyək ki, N.Paşinyan oktyabrın 13-də Bişkekdə keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında iştirakdan da boyun qaçırmışdı. Bir sıra siyasi ekspertlər KTMT sammitində iştirakdan imtinanı Ermənistan hökumətinin Rusiyaya qarşı növbəti demarşı kimi qiymətləndirirlər.

Bütün bunlara paralel olaraq, Ermənistanın Qərb dövlətləri və qurumları (Avropa İttifaqı, Avropa Parlamenti, Avropa Şurası və onun Parlament Assambleyası) ilə əlaqələri getdikcə möhkəmlənir. Ermənistan baş nazirinin, xarici işlər, müdafiə nazirlərinin, təhlükəsizlik şurası katibinin Qərb ölkələrinə səfərləri intensivləşir. Həmçinin Qərbdən Ermənistana edilən səfərlərin sayında da nəzərəçarpacaq artım müşahidə olunur. Noyabrın 6-da Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant Edvard Asryan Ştutqartda ABŞ-ın Avropa Komandanlığı komandanının müavini, general-leytenant Stiven Başamla görüşmüşdü. Ermənistan müdafiə nazirliyindən bildirilmişdi ki, görüşdə Ermənistan-Amerika hərbi əməkdaşlığının inkişafı ilə bağlı məsələlər müzakirə olunub.

Yunanıstan, Kipr və Ermənistandan olan xüsusi təyinatlıların noyabrın 6-dan 10-dək birgə keçirdikləri hərbi təlimlər də İrəvanın Qərb ölkələri ilə hərbi əməkdaşlığı genişləndirmək istiqamətində atdığı addımlardandır. Nəzərə alaq ki, Yunanıstan 1952-ci ildən NATO-nun üzvüdür. Kipr Respublikası isə alyansa üzv olmasa da, Avropanın bütün qurumlarında təmsil olunur. O cümlədən Avropa İttifaqının üzvüdür.

Yunanıstan Müdafiə Nazirliyinin Baş Qərargahının yaydığı məlumata görə, üç ölkənin xüsusi təyinatlılarının əməliyyat hazırlığını təkmilləşdirmək məqsədi daşıyan təlimləri paytaxt Afina yaxınlığında yerləşən Attika vilayətində keçirilib. Qurumun saytında yerləşdirilən məlumatda qeyd olunub ki, üçtərəfli birgə təlimlər Yunanıstan, Kipr və Ermənistanın baş qərargahının planları, həmçinin beynəlxalq əməkdaşlıq çərçivəsində baş tutub.

"Yunanıstan, Kipr və Ermənistan arasında 2023-cü il üçün Birgə Fəaliyyət Planının (JAP) bir hissəsi olan birgə təlim iştirakçılarının qarşılıqlı anlaşma səviyyəsinin artırılmasına və onlar arasında nou-hau mübadiləsinə, habelə onların əməliyyat imkanlarının gücləndirilməsinə imkan verib", – deyə məlumatda qeyd olunub. Təlimlərdə döyüş atışları icra edilib, snayperlərin texnika və taktikası, qapalı məkanlarda manevrlər, əməliyyatların planlaşdırılması işlənilib.

Qeyd edək ki, Ermənistan bundan öncə də Yunanıstan və Kiprlə hərbi əməkdaşlıq həyata keçirmişdi. Əlbəttə, hansısa ölkənin digəri ilə belə əməkdaşlığı inkişaf etdirməsi onun suveren hüququdur. Ancaq burada tərəflərdən birinin Azərbaycan ərazilərini 30 ilə yaxın işğal altında saxlayan, bu gün də silah arsenalını durmadan artıran Ermənistan, digərinin isə Azərbaycanın ən yaxın strateji müttəfiqi Türkiyə ilə ciddi problemlər yaşayan Yunanıstan olduğu diqqətdən yayınmamalıdır. Əgər Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı bölgədə sülhə, əmin-amanlığa xidmət edirsə, Ermənistan–Yunanıstan hərbi əməkdaşlığı hərbi təxribatların baş verməsinə, dağıdıcılığa, işğalçı niyyətlərə yönəlib. Bu baxımdan Ermənistan–Yunanıstan–Kipr hərbi əməkdaşlığı bölgədə yeni gərginlik yaradan amildir. Ancaq Azərbaycan Ordusunun hazırkı gücü, imkanları və döyüş əzmi istənilən təxribatların qarşısını almağa hər an hazırdır. Ordumuzun hazırda üç il əvvəlki dövrlə müqayisədə daha güclü olduğunu Ali Baş Komandan İlham Əliyev də bildirib. Ermənistan, onun himayədarları və bölgədə yeni təxribat havasında olanlar bunu unutmamalıdırlar. İrəvanın özü kimi ölkələrlə keçirdiyi hərbi təlimlər isə "suda boğulan saman çöpündən yapışar" zərb-məsəlini xatırladır. Ancaq artıq həmin çöplər də tükənir...

*Səxavət HƏMİD*
*XQ*

### Ekspert rəyi

**Üzeyir CƏFƏROV,**
**ehtiyatda olan polkovnik**



– Ermənistan Rusiyanın təsir dairəsindən uzaqlaşaraq bəzi ölkələrlə müəyyən hərbi təlimlər keçirməyə, yeni ittifaqlar qurmağa çalışır. Bu da İrəvanın qarşıdakı dövr üçün məqsədlərindən irəli gəlir. Üçtərəfli hərbi təlimlərə də mövcud kontekstdə baxmaq lazımdır. Erməni hərbçilər Yunanıstandan, yaxud Kiprdən müəyyən vərdişlər, bilgilər əldə etmək üçün təlimlərə qatılıblar. Adi təlimlərdən biridir. Hər halda düşünürəm ki, bu təlimlər Hayastan ordusunun döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artırmağa kömək etməyəcək. Digər tərəfdən, təlimlərdə şəxsi heyətin sayının azlığı da diqqəti çəkir.

Qeyd etdiyim kimi, Ermənistan Rusiyanın və KTMT-nin təsir dairəsindən uzaqlaşmaq üçün son vaxtlar bəzi ölkələrlə nəzəri və praktiki təlimlərə qatılır. Təlimlərdə Yunanıstandan başqa hansısa digər NATO qüvvələri və ya ölkəsi iştirak etmir. Bundan əlavə, təlimlərdə xüsusi təyinatlılar iştirak etsələr də, atəş hazırlığı, snayper hazırlığı kimi mürəkkəb olmayan elementlər həyata keçirilir. Həmin elementləri adi quru qoşunları da gündəlik təlimlər zamanı həyata keçirirlər. Bunun özü də təlimlərin aşağı səviyyəsini göstərən amillərdən biridir.

# Keşişlərin əlində alətə çevrilən dövlət – Ermənistan

## Şovinizm, faşizm erməni-qriqorian kilsəsinin xislətindədir



(əvvəli 1-ci səhifədə)

### Dövlətə meydan oxuyan katolikoslar

Bəli, erməni-qriqorian kilsəsi Ermənistanın siyasətinə çox böyük təsirə malikdir. Onun bu təsirini orta əsrlərdə Avropa dövlətlərində kilsənin, kardinalların dövlətin siyasətini yönəltməsi ilə müqayisə etmək mümkündür. Sadəcə fərq ondadır ki, o dövrdə kilsə hakimiyyətlə xalq arasında körpü rolunu oynayırdı, erməni "din xadimləri" isə şovinizmin, faşizmin təbliğatı kimi zərərli fəaliyyətlə məşğuldurlar. Əgər Eçmiədzin Qarabağın işğalı dövründə yaradılmış "artsax eparxiyasının" qorunub saxlanması barədə qərar qəbul edirsə, bu, o deməkdir ki, rəsmi İrəvan Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyib. Yəni, erməni kilsəsi "fatihəsi oxunmuş" məlum münaqişəni uzunmüddətli formaya keçirmək təşəbbüsünü irəli sürür. Mahiyyət etibarilə kilsə Ermənistan dövlətinin Qarabağla bağlı siyasi xəttinə qarşı çıxır, bir növ ona meydan oxuyur. Bu kontekstdən yanaşanda ortaya maraqlı sual çıxır. Ermənistan Azərbaycanla sülh müqaviləsini imzalayandan sonra həmin kilsə "xadimləri" hansı mövqeyi tutacaqlar? Bəlkə ikitərəfli sülh dialoqunun sonunda erməni diplomatlar qriqorian kilsəsinin təbəələri kimi sazişə imza ata bilmədiklərini bəhanə gətirəcəklər?

Şübhə doğurmayan həqiqət odur ki, "Eçmiədzin taxt-tacı"nın sahibləri iki əsrdir ki, imanla, xoş məramla bir araya sığmayan əməllərlə məşğuldur. Bu sıraya onların Alban kilsəsinin əmlakını oğurlamaları, milli-mənəvi irsini mənimsəmələri və gürcü kilsəsini "özəlləşdirməyə" çalışmaları da aiddir. XIX-XX əsrlərdə "Hnçak", "Daşnaksütyun" kimi terrorçu partiyalara yalnız ruhani dəstəyi deyil, həm də hərbi yardım göstərən məhz erməni kilsəsi olub.

**QEYD: Erməni-qriqorian kilsəsi "könüllü ianələr" hesabına bu terrorçu qrupları hər cəhətdən maliyyələşdirirdi. Erməni terrorizminin "zirvəsi" sayılan ötən əsrin yetmişinci illərində kilsə ABŞ-da, necə deyərlər, "iş başında" həlak olmuş erməni terrorçularının "anım mərasimlərini" həyata keçirirdi. Allahdan qorxmayan həmin apostol və katolikoslar dünyanın müxtəlif ölkələrində türk diplomatlarının qətllərinin sifarişçisi və sponsoru qismində çıxış edirdilər.**

Ermənistanda bu barədə ucadan danışmağı xoşlamırlar. Fakt ondan ibarətdir ki, sabiq sovetlər dönəmində Eçmiədzin qaçaqmalçılığa qurşanan mərkəzlərdən biri olub. Xaricdəki zəngin dindaşlarından daxil olan yardım bağlamaları daha sonra bazarlarda satılırdı. Bu gün İrəvanda baş kilsənin gümbəzini bəzəyən nəhəng qızıl xaçın məhz SSRİ dövründə qaçaqmal yolu ilə gətirilmiş qızıldan töküldüyü, həmin qızılın böyük qisminin isə mənimsənildiyi heç kəsə sirr deyil.

### "Müharibə "fitili"ni kilsə yandırdı

Erməni kilsəsinin Azərbaycana qarşı yeni təxribatlara start verdiyi göz önündədir. Erməni Apostol Kilsəsinin (EAK) erməni şovinizminin və revanşizminin başında durduğu yaxşı məlumdur. Bu mənada onun növbəti dəfə "parlaq" anti-Azərbaycan istiqamətini nümayiş etdirməsi qətiyyən təəccüblü deyil. Qarabağın tamamilə Azərbaycanın tərkibinə qayıtmasına, marionet separatçı qurumun varlığına son qoyulmasına baxmayaraq, EAK bu təxribata əl atıb. Məlumatda həmçinin deyilir ki, Ali ruhani şura beynəlxalq platformalarda "Bakının erməni abidələrinə, ziyarətgahlarına və qəbiristanlıqlarına qəsd etdiyi barədə" ittihamlar səsləndirməyə çağırıb. Məqsəd "Qarabağda erməni mədəni-tarixi irsini qoruyub saxlamaq" imiş. Əslində, burada təəccüblü heç nə yoxdur. Ona görə ki, Azərbaycana qara yaxmaqdan ötrü erməni tərəfi bütün üsullardan istifadə edir. Bunun növbəti nümunəsi ötən həftə təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan tərəfindən Ermənistan parlamentinin daimi komissiyasının iclasında baş verdi. Janna bəyan etdi ki, İrəvan "Dağlıq Qarabağda (?) erməni mədəni-tarixi irsini qorumaq məqsədilə Azərbaycana beynəlxalq təzyiqin gücləndirilməsinə" nail olacaq.

2023-cü ilin mayında EAK rəsmi İrəvanı "məğlubiyyət düşüncəsindən imtina etməyə və ümummilli məsələlərlə bağlı müstəqil qərarlar qəbul etməməyə" çağırdı. Yəni, kilsə Qarabağı geri qaytarmaqdan ötrü hökumətə "milləti səfərbər etməyi" tövsiyə edirdi. Bununla bağlı EAK-ın məlum müraciətində deyilirdi: "Bu taleyüklü məqamda xalqımıza və milli strukturlarımıza müraciət edərək, ümummilli maraqlarımız naminə bir yerdə və dözümlü olmağa, "artsaxın öz müqəddaratını təyinetmə hüququnu" reallaşdırmağa çağırırıq". Fikrimizcə, bunun əlavə şərhə ehtiyacı yoxdur.

**Xatırlatma:** Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin əsas təşkilatçılarından biri olan A.S.Qriboyedov Rusiya imperatoruna yazırdı: "Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır".

### İbrət məqamı

Bu məqamda tarixə qısa səyahət etməyimiz yerinə düşər. Vaxtilə Çar Rusiyası erməni kilsəsi ilə sövdələşməyə gedərək Cənubi Qafqazın dini-etnik mənzərəsində məqsədli şəkildə dəyişiklik yaratdı. Xüsusilə Azərbaycanın tarixi torpaqlarında bilərəkdən gəlmə erməniləri məskunlaşdırdı. XIX əsrdə Çar Rusiyası, Fransa və İngiltərə regionda strateji planlarını həyata keçirmək üçün erməni kilsəsindən vasitə kimi istifadə edirdi. "Böyük Ermənistan" xülyası ilə zəhərlənmiş erməni millətçiləri XIX əsrin sonlarında qriqorian kilsəsinin xeyir-duası ilə mütəşəkkil fəaliyyətə başladılar.

İndi, XXI əsrin çağdaş dünyasında istənilən dinin əsas missiyasının sülhə, xoşgörüyə çağırışın olduğunu tamamilə unutmuş EAK rəiyyətini qonşuları ilə qarşıdurmaya, sonda özləri üçün faciəyə çevriləcək revanşist cəhdlərə təhrik etməkdədir. Digər tərəfdən, beyinləri "miatsum" xəstə ideologiyası ilə zəhərlənmiş millətlə manipulyasiya etməkdən çəkinməyən erməni kilsəsi açıq-aydın Ermənistanı Azərbaycanla yeni müharibəyə sürükləyir. Bu zaman nə ötən əsrdə, nə də bu yüzillikdə başlarına gələnlərdən ibrət dərsi almağı ağlının ucundan da keçirmir. Nə etməli, din adına danışan bu dinsiz-imansız qurumun mayasında başqa dövlətlərin, ilk növbədə Azərbaycanın ərazisində separatizmi və terrorizmi körüklənmək dayanır.

**QEYD:** 1885-ci ildə yaradılmış "Armenakan" adlı təşkilatın əsas məqsədi Vanda və onun ətrafında yaşayan müsəlman-türk əhalisinə qarşı terror və təxribatlar törətmək idi. 1886-cı ildə qurulan "Hnçak" ("Zəng") təşkilatı Osmanlı dövlətinə qarşı terror vasitəsilə mübarizə aparacağını elan etdi. 1890-cı ildə təsis edilən Daşnaksütyun Partiyası isə "Böyük Ermənistan" mifini reallaşdıracağını bildirərək Azərbaycana və Türkiyəyə qarşı çoxsaylı terror hadisələri törədib.

Nə yazıqlar ki, erməni kilsəsi özünün dağıdıcı ideologiyasını bu gün də ermənilərin şüuruna yeritməklə məşğuldur. Bununla o, cəmiyyətdə reavnşist əhval-ruhiyyəni gücləndirmək və bölgədə sülhün bərqərar olmasının qarşını almaq məqsədini daşıyır.

### Revanşist çağırışlar davam edir

Azərbaycan yeri gələndə erməni-qriqorian kilsənin ideoloji cəhətdən zərərli, təxribatçı fəaliyyətinə özünün narazılığını bildirib. Bu sıraya ölkəmizdə fəaliyyət göstərən müxtəlif dini konfessiyaların Eçmiədzinə etirazlarını da aid etmək olar. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə cari ilin sentyabrın 12-də Yunanıstanın Azərbaycandakı səfiri Xristos Kapodistriası qəbul edərkən təəssüflə bildirib ki, Erməni Apostol Kilsəsi sülh deyil, yenidən müharibəni təbliğ edir, revanşizm ideyalarını körükləyir. Halbuki, sülhü tərənnüm etmək, xalqlar arasında qarşılıqlı anlaşma mühiti yaratmaq dini liderlərin mənəvi borcudur. A.Paşazadə həmçinin keçən il Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini liderlərinin Şuşada keçirilmiş 3-cü görüşündə çıxışı zamanı deyib: "Erməni Apostol Kilsəsi erməni revanşizminin önündə gedir, qisas təbliğatı, beynəlxalq müstəvidə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. On illər ərzində erməni separatçıların cinayətkar əməllərinə mənəvi haqq qazandıran kilsə rəhbərliyinin Xankəndiyə səfərlər edərək revanşist bəyanatlar səsləndirməsi böyük təəssüf doğurur. Həyata deyil, ölümə, dinc birgə yaşayışa deyil, işğala, zora xeyir-dua vermək dini dəyərlərlə bir araya sığmır. Onların erməni xalqına vəd etdikləri səadət əvəzinə, yeni faciələr gətirməkdədir. Buradan, azad Şuşadan erməni kilsəsinə, Eçmiədzinə səslənirəm – revanşizmə, nifrət və təxribatlara son qoyun. Uca Yaradan qarşısında mənəvi borcunuzdan çıxış edərək ölümə, yeni müsibət və faciələrə deyil, həyata çağırın! Yalan vədlər deyil, məhz həqiqətləri demək sizin erməni xalqı qarşısında ən böyük tarixi xidmətiniz olar".

44 gün davam edən Vətən müharibəsinin gedişində də erməni katolikosu II Qaragen fitnəkar çağırışları ilə "yadda qaldı". Ancaq, həmişə olduğu kimi, onun fitnə-fəsadı bu dəfə də iflasa uğradı. Çünki Azərbaycan haqqın və ədalətin tərəfində durmuşdu. Şərə, şeytana qulluq göstərən, din pərdəsi altında dinsizlik edən katolikos, apostol və keşişlərin isə gec-tez layiqli cəzalarını alacaqları qaçılmazdır. Həm bu dünyada, həm də o dünyada.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



**Gündüz İSMAYILOV,**
**Dini Qurumlarla İş üzrə**
**Dövlət Komitəsinin sədr müavini**

Ermənilər indiyə qədər Azərbaycanda, Anadoluda, eləcə də Güney Azərbaycanda dəfələrlə qətliamlar, vandalizm aktları törədiblər, qırğınlar həyata keçiriblər. Bu vəhşilikləri törədərkən həm arxalarında dayanan, həm də prosesləri idarə edən əsas qüvvələrdən biri erməni-qriqorian kilsəsi olub. Beynəlxalq terrorizmdə "erməni terroru" deyilən bir anlayış var. "Erməni terrorizmi"nin tarixi XIX əsrin sonlarına qədər gedib çıxır. İlk erməni terror təşkilatları "Armenakan", "Hnçak", daha sonra "Daşnaksütyun" Osmanlı dövründə Şərqi Anadoluda yaranıb. Ermənilərin bu cür təşkilatlanmasının arxasında, təbii ki, böyük imperialist qüvvələr dayanırdı. Bu prosesin ideoloji generatoru funksiyasını erməni-qriqorian kilsəsi yerinə yetirirdi. İstər Osmanlı Anadolusunda, istərsə də XX əsrin əvvəllərində, 1905, 1918-1920-ci illərdə Şimali Azərbaycanda, Qarabağda, Bakıda, Qubada, digər bölgələrdə, o cümlədən Qərbi və Güney Azərbaycanda türklərə və azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı aktlarının icrasında "ən böyük xidməti" məhz qriqorian kilsəsi göstərib. Eyni aktların 1988-ci ildən başlayaraq Qərbi Azərbaycanda, o cümlədən Qarabağda azərbaycanlılara qarşı törədilməsinin şahidi olduq. Hətta Sovet dövründə ermənilərin müxtəlif terror təşkilatlarının, həmin ASALA-nın törətdiyi aktların sifarişçisi erməni kilsəsi olub. Bir faktı qeyd edək: Bakıda fəaliyyət göstərən erməni-qriqorian kilsəsinin keşişi 1990-cı ildə Azərbaycandan gedəndə Qazaxda Gürcüstanla sərhədimizi keçərkən Qırmızı körpünü partlatmağa cəhd etmişdi. Amma bu, baş tutmamış, qumbara keşişin əlində partlamış və özü xəsarət almışdı. Daha sonra, işğal illərində Qarabağda keçirdikləri hərbi paradlarda, silahlı toqquşmalarda erməni keşişləri, kilsənin rəhbərliyi xalqını türklərə qarşı vandalizmə çağırırdılar. Təəssüf ki, erməni-qriqorian kilsəsi bu gün də öz ampluasındadır. Yenə də türklərə, azərbaycanlılara qarşı nifrət, ədavət, kin-küdurət püskürür. Bu prosesdə Eçmiədzinlə yanaşı, Türkiyədəki, Livandakı və Qüdsdəki erməni kilsələri də iştirak edirlər. Livanda yerləşən Kilikiya erməni kilsəsi, onun patriarxı I Aram xüsusi canfəşanlıq göstərir. Görünən odur ki, erməni dini mərkəzlərinin mahiyyətində, bütün dinlərdə olduğu kimi sülh yox, şovinizm, faşizm elementləri dayanır. Bu, erməni-qriqorian kilsəsinin xislətinə çevrilib. Son üç ildə Qarabağda baş verənlərin nəticəsində sülhün onlar üçün də ən doğru seçim olduğunu anlamalıydılar. Bunu anlamaq istəyənlərə mane olan məhz erməni kilsəsidir.

## Müxbirlərimiz Laçından qayıdıblar

# Böyük qayıdışın Laçın qaranquşu



Birinci yazı

*(əvvəli 1-ci səhifədə)*

(əvvəli 1-ci səhifədə)

### Qarabağın yağı qapısı

O zaman məqsəd Ermənistana bitişik olacaq erməni muxtariyyətinin az sonra bu sovet respublikasına birləşdirilməsi üçün coğrafi arqument yaratmaq olmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi çevrəsinin müxtəlif xəyanətlərlə daraldılmasına qarşı dayanan milli qüvvələr belə bir amansız siyasi özbaşınalığa və inzibati zorakılığa qarşı çıxmışdılar. Beləliklə, respublikanın “Nərimanovçu rəhbərliyi”nin səyləri ilə əhalisi bütünlüklə soydaşlarımızdan ibarət olan bu aralıq bölgədə eyni adlı inzibati mərkəzi olmaqla Laşıbn qəzası yaradılmışdı.

Sonrakı 70 illik kommunist diktaturası dövründə erməni millətçiləri dəfələrlə DQMV-nin Ermənistana birləşdirilməsi avantürasını gerçəkləşdirməyə cəhd edəndə Laçın aralıq zonasının azərbaycanlılardan ibarət rayon olması bu qəsdlərin qarşısının alınmasında əsas tutalğalardan olmuşdu. Yəni Ermənistanla heç bir ortaq sınırı olmayan erməni muxtariyyətinin qonşu respublikaya birləşdirilməsi aşkar bir anneksiya aktı kimi meydana gəldiyindən Azərbaycanın bu xəyanətkarlığa etirazı keçərli olmuşdu.

DQMV yaradılanda Qarabağın qapısı Laçından əli boşa çıxan ermənilər sovet rejiminin süqutu prosesində bu şəhəri və rayonu işğalçılıq yolu ilə ələ keçirməyə və Xankəndiyə hərbi-siyasi körpü salmağa nail oldular. 1918-ci ildə quldur Andranikin və daşnak hakimiyyətininn hərbi birləşmələrinin aşa bilmədiyi, Aşıq Ələsgərin “qüdrətdən səngərli-qalalı dağlar” adlandırdığı keçilməz bir ərazini Azərbaycandan ərazi və əhalicə 3 dəfəyə yaxın kiçik olan Ermənistanın asanlıqla ələ keçirib Qarabağı işğal edə bilməsinin qısa və aydın cavabı məlumdur: ölkəmizdəki qarışıqlıq və başsızlıq, bundan da artığı – səlibçi Qərb mərkəzlərinin din qardaşlarına hərtərəfli yardımı.

Nəticədə dövrümüzün qeyri-leqal xaç ordeni Qarabağın 30 il erməni işğalında qalmasını təmin etdi.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qısa müddətdə milli birliyi gerçəkləşdirməsi, ölkəni iqtisadi dirçəliş və tərəqqi yoluna çıxarması, vahid komandanlığa tabe milli ordu quruculuğuna nail olması Ermənistanın işğalçılıq siyasətindən əl çəkməyib uzun sürən sülh danışıqlarını dalana aparmasından sonra Azərbaycanın Qarabağı hərbi yolla azad etməsi üçün ciddi əsaslar yaratdı. Ulu öndərin bu xəttini inamla davam etdirib xalqımızın iqtisadi, hərbi, mənəvi potensialını vahid dəmir yumruğa çevirən Prezident, Ali Baş Komandan İlham Əliyev işğalçı ölkənin yağmaçı hərbi birləşmələrinin darmadağın edilməsini, ərazilərimizin əsarətdən xilas olunmasını misilsiz bir qətiyyətlə gerçəkləşdirdi.



Sol cinahdan Laçının yaşayış məntəqələrinin ələ keçirilməsi, mərkəzdən Şuşanın azad edilməsi və Xankəndinin atəş altına düşməsi, sağ tərəfdən Murov yüksəkliklərinin aşılması düşmənin təslim aktını imzalaması ilə nəticələndi. İşğalçı gücsüzlüyünü anlayıb Ağdam, Kəlbəcər və Laçının yerdə qalan hissəsini də döyüşsüz təhvil verməyə məcbur oldu. Laçının müstəsna strateji önəmini nəzərə alıb onun mərkəzini və sərhəd məntəqələrini məskunlaşdırmış düşmən ölkə onun boşaldılmasını 1 il ləngitdi.

### Qeyrət və hünər marafonu

2022-ci ilin sentyabrında bu yerlərdə nəzarəti ələ keçirən Azərbaycan Prezident İlham Əliyevin xüsusi nəzarəti altında cəmi 8 aya Laçın şəhərini, Zabux və Sus kəndlərini erməni izlərindən tamamilə təmizləyərək bu məntəqələrdə ən yüksək həyat təminatları yaratdı. Laçın şəhərində buradan didərgin salınmış hər ailənin həyətində hər cür şərati olan mənzillər tikildi və əsaslı təmir edildi. 2023-cü ilin 28 mayında – xalqımızın ən ali dövlət bayramı günündə ölkə başçısının iştirakı, xeyir-duası ilə laçınlıların ilk dəstəsi doğma şəhərə qovuşmaq səadətinə çatdı.

Laçın şəhərinin dirçəldilməsi və məskunlaşdırılması ilə bağlı ölkənin tikinti, xidmət və digər qurumlarının ötən bir ildə göstərdiyi fədakarlıq 44 günlük Vətən müharibəsindəki tarixi rəşadətin mülki cəbhədə davamı sayılır. Prezident İlham Əliyevin ən yüksək səviyyədə həyata keçirdiyi bu hünər və qeyrət aksiyası xəyanətkar qonşunun Qarabağa yönəlik niyyətlərinin qarşısında keçilməz sədd yaratmışdır. Laçının belə bir möhtəşəm quruculuqla dünyanın ən gözəl dağ şəhərlərindən birinə çevrilməsi Qarabağ və Şərqi Zəngəzurun qonşu ölkəyə baş qapısının düşmənçilik niyyətlərinə birdəfəlik bağlanması deməkdir. Bütün bunlar ağıllı, uzaqgörən Vətən övladlarının 1923-cü ildə Laçının Qarabağda əsassız olaraq qurulan erməni muxtariyyətinə daxil edilməsinin qarşısını almasının, nəhayət, zəmanəmizin faciəli gerçəklikləri baxımından (biz artıq 30 il bu amansızlıqları dadmış, bu ədalətsizlik məngənəsindən sıyrılıb çıxmışıq) Zəfər yürüşümüzün tamamlanmasıdır.

Bu söylədiklərimiz isə nə mövzuya yorucu girişdir, nə də çağdaş tarix kitabımızın hamıya məlum ağrılı və şərəfli səhifələrinin təkrarlanmasıdır. Bu duyğu-düşüncələr – “Xalq qəzeti” üçün geniş yazı, Xalq TV üçün əhatəli süjet hazırlamaq üçün Laçına xüsusi tapşırıqla ezam olunan qrupumuzun yol boyu söhbət və təxmin etdiyi iş planının, necə deyərlər, özülünü təşkil edən zəruri bir mətn parçası kimi ərsəyə gəldi. Yəni Laçın adlı bir bölgə tariximizə necə daxil olub, onun başına ötən bir əsrdə nələr gəlib və ən əsası, dünən olduğundan da artıq dərəcədə bu gün bu yağı qapısı xalqımız üçün hansı önəm daşıyır.

Önəm isə müstəsnadır, təxirəsalınmazdır, ümummilli mahiyyətdədir. Laçın düşmənə gözdağı olacaq dərəcədə dirçəldildiyi kimi, onun xayalına gətirə bilmədiyi səviyyədə də alınmaz olmalıdır. Azərbaycan artıq buna nail olub. Bu dağlar “qüdrətdən səngərli-qalalı” olduğu kimi, ona əbədi sahibliyimizlə də bir daha aşılmaz, yenidən tapdağadüşməz olmalıdır. Laçını xalqımıza qaytarmış müzəffər Komandan, ümumxalq sevgisi qazanmış lider İlham Əliyev ilk sakinləri doğma evlərinə qayıtmaları münasibətilə təbrik edəndə elə belə də dedi: “Biz bundan sonra bu yerlərdə əbədi yaşayacağıq”.





### Köhnə yurdun yeni tarixi

Bəli, biz artıq Laçına qayıtmışıq, onun yüzlərlə ağ sarayını – evini, tikilisini ucaltmışıq. Bütün ölkə, onun yetərli imkanları Laçının sonadək bərpa edilməsinə, genişlənməsinə, daha möhtəşəm olmasına yönəlib. Qrupumuz bu əzəmətli gerçəyi I Qarabağ savaşında azad edilib Arazqırağında abad bir məntəqəyə çevrilmiş Horadizdən Zəngilanın girişində Qarabağ və Şərqi Zəngəzurun yaxın gələcəyinin pilot məntəqəsi kimi ərsəyə gəlmiş Ağalı qəsəbəsinədək olan, təxminən, 90 kilometrlik məsafənin hər addımında gördü və yəqin etdi.

Erməni vandalların yer üzündən sildikləri, işğaldan əvvəl Zəngəzur dəhlizinin Azərbaycan səmtdə davamı olan dəmiryol xətti ən yüksək səviyyədə yenidən çəkilib. Bu magistrala paralel olaraq, dəhlizin avtomobil xətti də tamamlanmaq üzrədir. Ara məsafədə hələlik “daşıyıcı arteriya” sayılan çınqıllı yolda ayrı-ayrı şirkətlərə məxsus iri maşınlar fasiləsiz olaraq Laçının bərpa edilən məntəqələrinə material, avadanlıq daşıyır. Xidmət qurumlarının maşınları əhalinin zəruri ehtiyaclarını cavablandıran malları Laçına çatdırmağa can atır.

Bir sözlə, ölkənin quruculuq nəbzi bu yollarda, Şərqi Zəngəzur və Qarabağın quruculuq işləri aparılan məntəqələrində döyünür. Ən yüksək sürət və Zəfərimizə layiq keyfiyyət bu misilsiz prosesin ana xəttini təşkil edir. Hələlik minik maşınları üçün aşağı sürətlə keçilən çınqıllı yolu aşıb Ağalıda bir balaca dincimizi alanda burada bizim kimi nəfəsini dərən sürücülərlə ayaqüstü söhbət etdik.

Ölkənin müxtəlif idarə və müəssisələrini təmsil edən bir insanlar aylardan bəri bu yollarda keçən günlərindən heç bir yorğunluq hiss etdirmədən, yüksək əhvalla söz açdılar. Onların dedikləri belə bir ümumi qənaəti ifadə edirdi: “Oğullarımız qan töküb, can verib cənnət torpaqlarımızı düşmən tapdağından azad ediblər, qeyrətimizi ləkədən təmizləyiblər. Hər birimizin borcu bu qeyrətlə torpaqlarımızdan düşmənin murdar izlərini silmək, yurd həsrətli soydaşlarımızı öz yurdlarına qaytarmaqdır”.

Ağalıdan Qubadlı səmtə dönüb, yolumuzun davamında Laçın ərazisinə yaxınlaşdıqca bölgə ilə ölkənin təminat mərkəzləri arasında nəqliyyat körpüsü salmış maşınlarla daha çox rastlaşırdıq. Həkəri çayının kənarı ilə hər iki tərəfdən qayalıqlarla əhatə olunmuş, yenidən qurulmaqda olan ensiz yolda mənzilə tez çatmağa can atan yük maşınlarına yol vermək üçün tez-tez kənara çəkilməli olurduq.

### Ağ libaslı Laçın

Adı tarix kitablarına, şairlərin şeirlərinə düşmüş Hoçazdağın gündoğar səmtində Laçın qayasının və ona bitişik qövsvari yüksəklikərin yamaclarında pillə-pillə ucalan Laçının 1 ildə belə bir təntənəli dirçəlişi qarşımızda möcüzəli bir mənzərə ilə cilvələnirdi. Şəhərin mərkəzini soruşub dolama yolla orta hissədən yuxarıya doğru qaldıq. Bu yerdə ağ örtüklü iri köşk dərhal diqqətimizi cəlb etdi.

Bu yer telekanllarda yayımlanmış və qəzetimizdə də dərc olunmuş şəkillərdən bizə bəlli olan ünvan – Prezident İlham Əliyevin bu il avqustun 26-da Laçın Şəhər Günündə şəhər sakinləri ilə görüşdüyü məkan idi. Bu həmin yerdir ki, Laçının xilaskarı, şəhəri ən yüksək tələblərlə ucaltdıran dövlət başçısı həmin gün bir daha dünyaya bəyan etdi: “Laçının işğala məruz qalması böyük faciə idi, həm laçınlılar üçün, həm bütün Azərbaycan xalqı üçün. Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi. Çünki beləliklə, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi. Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq”.

Bax, bu öyünclü gerçəyin çağdaş tariximizə həkk edildiyi ünvanda – Laçın şəhərinin sığındığı mərkəzi yüksəkliyin orta hissəsində açıq səma altında amfiteatra bənzəyən bu yerdən sağa və sola, aşağı və yuxarıya şəhərin ümumi mənzərəsi ovuc içi kimi görünür. Maşından düşüb taxta məhəccərlə əhatələnmiş bu təbii eyvandan foto və video çəkilişlər aparmağa başladıq.

Doğrudan da, qarşımızda açılan mənzərə bənzərsizliyi ilə bizi heyran qoyurdu. Ağ rəngə boyanmış, kirəmidi damlarla örtülmüş, biri digərinə bənzəməyən fərdi evlərin, müxtəlif sosial-mədəni obyektlərin və ofislərin təzə-tər, ürəkaçan görkəmi burada keçmişin heç bir qəlbağrıdan nişanəsinin qalmadığından xəbər verir. Bəli düşmən bu yerlərdən rüsvaycasına qovulduğu kimi, onun murdar izləri də son zərrəsinədək silinib atılmaqdadır.



Biz öz aramızda bu öyünclü təəssüratımızı bölüşdüyümüz anlarda qonşuluqdakı son tamamlama işləri aparılan xüsusi arxitekturalı bina tərəfdən bir nəfər qrupumuza yaxınlaşıb kimliyimizlə maraqlandı. Mərkəzi mediadan xüsusi tapşırıqla gəldiyimizi bildirdik. Həmin adam özünü təqdim edib bildirdi ki, şəhərdə irimiqyaslı abadlıq-bərpa işləri aparan “Bakı Abadlıq Xidməti” MMC-nin nəzdində yaradılmış “Laçın Abadlıq Xidməti” İdarəsinin rəis müavini Elnur Abdullayevdir. Öz ayağı ilə gəlib çıxmış bu arzuedilən adamla müsahib olmaq fürsətini qaçırmadıq. Amma ilk sualı o verdi: “Xüsusi tapşırığınız nədən ibarətdir?”.

Bildirdik ki, laçınlıların köhnə yurda yeni sakin kimi qayıtdıqları şəhərdə özlərini necə hiss etmələri, uzun ayrılıqdan sonra müvəqqəti məskunlaşdıqları yerlərdən qayıdıb yeni tipli bir şəhərdə yaşayışa necə uyğunlaşmaları, psixoloji adaptasiya mərhələsini necə keçmələri, qarşıdan gələn qış qayğıları barədə geniş yazı və videosüjet hazırlamalıyıq.

### Məmnunluq, şükranlıq

**Elnur Abdullayev şəhərdə aparılmış xüsusi bərpa-quruculuq işlərinin nəticələrinin hərtərəfli rahatlığa və ümumi məmnunluğa xidmət etdiyindən söz açdı:**

– Laçınlılar Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən həyata keçirilən tədbirlərdən, dövlət qayğısından hədsiz razıdırlar. Hazırda Laçın şəhəri, Zabux və Sus kəndlərində 712 tikilidə işlər davam etdirilir. Bunlardan 9-u çoxmənzilli binadır. Aparılan abadlıq tədbirləri çərçivəsində qeyri-yaşayış obyektləri və kommunikasiyalarla bağlı da genişhəcmli işlər görülüb. Şəhərdə 75 qeyri-yaşayış obyekti, həmçinin kommunikasiya xətlərinin hamısı – təbii qaz, su, işıq və rabitə xətləri tamamilə yenidən çəkilib. Bundan əlavə, ümumi kanalizasiya sisteminin inşası başa çatdırılıb. Şəhər bütünlüklə işıqlandırma sistemi ilə təchiz edilib. Ümumilikdə şəhər infrastrukturu ilə bağlı işlərin 80 faizi tamamlanıb.

Laçında görülən işlər çərçivəsində buraya köçürülən ailələrin əsas məşğuliyyəti və əmək fəaliyyəti də diqqət mərkəzindədir. Bu istiqamətdə bəzi sahələr üzrə işlər yekunlaşmaq üzrədir. Belə ki, rayonun Zerti kəndi ərazisində yaradılan aqroparkda 50-yə yaxın fabrik və müəssisənin yaradılması nəzərdə tutulub. “Bakı Abadlıq Xidməti” tərəfindən inşa olunan bu sənaye müəssisələrində laçınlı ailələr daimi işlə təmin olunacaqlar. Artıq aqroparkda mebel və yun emalı müəssisəsi daxil olmaqla, 5 fabrik fəaliyyətə başlayıb. 50-yə yaxın müəssisənin istismara verilməsi ilə 1200–1300 nəfər Laçın şəhər sakini işlə təmin olunacaq. Hazırda fəaliyyətə başlayan müəssisələrdə 430 nəfər Laçın sakini işləyir.

Zerti Aqro və Sənaye Parkında yerləşən “Zootopia” qoyun və keçi saxlama məntəqəsi, “Fəyaz bağı” istixanaları, “Gusto” ət kəsimxanası, “Həkəri" balıqçılıq təsərrüfatı, “Aydınoğlu” mebel fabriki fəaliyyət göstərəcək. Laçın dağlıq ərazidə yerləşdiyi üçün burada havaların tez soyuması nəzərə alınaraq, əhalinin qış istilik ehtiyatı artıq təmin edilib. Üstəlik, Laçın şəhəri noyabrın 8-dən etibarən təbii qazla təmin olunub. İndi “mavi yanacağın” evlərə giriş və çıxış xətləri quraşdırılır. Sakinlərin istifadəsinə verilən evlərə kombi istilik sisteminin quraşdırılması da nəzərdə tutulub. Evlərdə və binalardan istilik sistemləri əvvəlcədən çəkilib, otaqlarda qızdırıcılar quraşdırılıb.

Qeyd edək ki, Laçın şəhərinə indiyədək 315 ailə, yəni 1205 nəfər köçüb. Bu ay Laçına daha 75 ailənin qayıtması gözlənilir. Zabux kəndinə 94 nəfərlik 21 ailə geri dönüb. Ümumilikdə Laçın rayon ərazisinə 336 ailə, yəni 1299 nəfər köçürülüb. Bütün evlərdə bərpa və əsaslı təmir işləri yüksək keyfiyyətlə aparılır və bu zaman sakinlərin arzu və istəkləri də nəzərə alınır.

### Reza Deqatinin hədiyyəsi

Müsahibimizin bu ümumi məlumatından sonra nisbətən yuxarıda yolun kənarında 5–6 metr enində və hündürlüyündə, kubvarı, dörd tərəfində müxtəlif millətlərdən və irqlərdən olan uşaq şəkillərinin əks olunduğu nəhəng fotokompozisiya ilə maraqlandıq.

**Elnur Abdullayev bildirdi:**

– Bu uşaqlar məşhur mühacir soydaşımız Reza Deqatinin dünyanın müxtəlif yerlərində lentə aldığı uşaqların fotolarıdır. Onların arasında Laçına köçmüş ilk uşaların fotoları da yer alıb. Bizim uşaqların şəkilləri ayrıca pannolarda şəhərin müxtəlif yerlərini də bəzəyir. Müəllif onlara “Laçınlı uşaqların məmnunluğu” adı verib. Bu şəkillər Azərbaycanın başına gəlmiş bəlaları inkaredilməz görüntülərlə dünyaya yayan Reza bəyin laçınlılara hədiyyəsidir. O bu töhfəsi ilə müxtəlif taleli uşaqların timsalında dünyanın gələcəyini Laçına, bu şəhərin sabahını dünyaya təqdim edir. Təkcə siz deyilsiniz, şəhərə gələn qonaqlar hamısı bu orijinal təbliğat əsəri ilə maraqlanır və çox duyğulanırlar. Şübhəsiz, tezliklə Laçın da ölkənin fəal turizm marşrutuna qoşulacaq və təkcə bu görüntü ötən 31 ildə müsibətli günlər yaşamış, bugünkü xoşbəxtliyinə can atmış laçınlıların sülh, əmin-amanlıq, qardaşlıq çağırışlarını dünyaya yayacaq.

***Tahir AYDINOĞLU,***
***ƏLİ NƏCƏFXANLI,***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Bakı–Laçın–Bakı**



# Roma Papasından daha artıq katoliklik

*Nikol Paşinyanın anti-KTMT və anti-Rusiya xətti bu deyimi aktuallaşdırmaqdadır*



**Ermənistanın baş naziri Nikol Paşinyan, demək olar, hər ötən gün ölkəsinin anti-Rusiya təmayülünə yeni və daha tünd rəng çalarları əlavə etməkdədir. Onun Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının noyabrın 23-də Belarusun paytaxtı Minskdə keçiriləcək sammitində iştirakdan imtinası bunu söyləməyə əsas verməkdədir.**

Qeyd edək ki, məsələ Ermənistanın parlament müxalifəti və ictimai-siyasi dairələrində geniş müzakirə predmetinə çevrilməkdədir. Bu barədə söz açmazdan əvvəl bildirək ki, N.Paşinyan KTMT-nin Belarusdakı sammitində iştirakdan imtina qərarını evsahibi, Prezident Aleksandr Lukaşenko ilə telefon danışığı zamanı açıqlayıb və bildirib ki, qurumdakı həmkarlarının onu anlayışla qarşılayacağına ümid bəsləyir.

***

Əlbəttə, məsələ heç də onda deyil ki, Nikolun qərarına anlayış göstərilməsi ilə bağlı məntiq mənasızdır. Maraqlı olan məsələnin Lukaşenko-Paşinyan telefon danışığı müstəvisində açıqlanmasıdır. Nəzərə alsaq ki, telefon danışığı Belarus tərəfinin təşəbbüsü ilə gerçəkləşib, çox güman, Paşinyanı Minskə dəvət edən də elə Lukaşenko özü olub. Göründüyü kimi, Belarus Prezidentinin xoşməramlı jesti erməni baş nazir tərəfindən, loru dildə desək, qulaqardına vurulub.

***

Onu da bildirək ki, KTMT Ermənistanın anti-Rusiya xəttində xüsusi halqanı təşkil etməkdədir. Məlum olduğu kimi, 2022-ci ilin noyabrında İrəvan qurumun dövlət başçılarının yüksək səviyyəli toplantısına evsahibliyini gerçəkləşdirmişdi. N.Paşinyan həmin tədbirdə KTMT-ni Azərbaycan əleyhinə qaldırmağa çalışmışdı. Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı toplantıda erməni baş nazir bütün diplomatik etiketə zidd şəkildə təşkilatı Bakıya münasibətdə siyasi qərar çıxarmağa çağırmış, həmin ilin sentyabrında Azərbaycan-Ermənistan şərti sərhədində baş vermiş hərbi toqquşmanın ölkəsinə təcavüz kimi qiymətləndirilməsinə çalışmışdı. Əlbəttə, niyyətini gerçəkləşdirməyi bacarmamış, nəticə etibarilə KTMT-nin yekun sənədi İrəvanın onun mətninə etirazı səbəbindən qəbul edilməmişdi.

***

Sonrakı zaman kəsiyində də Ermənistanın anti-KTMT fəaliyyəti getdikcə güclənmişdi. Məsələn, Paşinyan administrasiyası qurumun bu il Ermənistanda nəzərdə tutulan təlimlərini keçirməkdən, kifayət qədər, nümayişkəranə şəkildə imtina etmişdi. Nikol həmin vaxt bildirmişdi ki, belə təlimlər ziyanlıdır, çünki onun təşkilini Azərbaycan və Türkiyə təhlükə kimi qiymətləndirəcək və müvafiq əks addımlar atacaq ki, nəticədə Ermənistan zərər görəcək. Yəqin erməni iqtidarının Paşinyanın şəxsində KTMT-ni ələ saldığının fərqinə vardınız.

***

Ancaq Nikol və komandasının KTMT müstəvisindəki anti-Rusiya köklənişi yalnız sadaladıqlarımızla bitmir. Azərbaycanın bu il sentyabrın 19-da başlatdığı və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirlərinin uğurla yekunlaşmasından, ölkəmiz suverenliyinə qovuşmasından sonra da erməni iqtidarı KTMT-ni qınamışdı. Belə təəssürat yaranmışdı ki, sanki qurum Qarabağ avantürasına dəstək verməli imiş, ancaq bu, baş vermədiyindən, Ermənistan onu özü üçün lazımsız sayır.

***

Ümumən, rəsmi İrəvanın anti-KTMT və anti-Rusiya təmayülü haqqında bir çox digər məsələlərdən də söz açmaq mümkündür. Onların hamısının üzərində dayanmadan Ermənistan daxilində Paşinyanın Belarusdakı sammitə qatılmamaq qərarına mənfi reaksiyalara diqqət yetirmək istərdik. Bəli, erməni politoloqlar Nikolun hərəkətini demarş kimi qiymətləndirməkdə haqlıdırlar. Görünür, Qərbdən gələn direktivlər imkan vermir ki, Paşinyan formal da olsa, Rusiyanın orbitində görünsün. Nəzərə alaq ki, o, MDB Dövlət Başçıları Şurasının ötən ay Bişkekdə düzənlənmiş zirvə toplantısına da qatılmamışdı. Yeri gəlmişkən, erməni baş nazir həmin ay Avropa Siyasi Birliyinin Qranadada baş tutmuş sammitinə böyük həvəslə yollanmışdı. Necə də yollanmasın, axı həmin tədbirin təşkilatçısı Fransa idi...

***

“Əgər bu, müstəsna hal olsaydı, izahatlar və əsaslandırmalar tapmaq mümkün idi. Amma uzun müddətdir ki, Ermənistan hakimiyyəti yüksək vəzifəli şəxslər səviyyəsində belə tədbirlərdə iştirak etmir. Ona görə də bunu demarşdan başqa bir şey adlandırmaq olmaz”, - deyə “Ermənistan” parlament fraksiyasının üzvü Armen Rustamyan bildirib. Onun sözlərinə görə, hakimiyyət öz təhlükəsizlik imkanlarını artırmağa çalışsaydı, məsələ anlayışla qarşılanardı və müxalifət iqtidarın hərəkətlərini alqışlayardı: “Lakin burada söhbət düşərgə dəyişməsindən gedir. Bu isə Ermənistan üçün çox ağır nəticələrə səbəb ola bilər. Çünki biz düşərgəni Qərblə Rusiya qarşıdurması kontekstində dəyişirik... Bu cür ardıcıl addımlar ona gətirib çıxaracaq ki, Rusiya ilə Qərb arasında qarşıdurma Ermənistan ərazisinə keçəcək. Bütün fəlakətlər də onda yaşanacaq”.

Qeyd edək ki, Ermənistanda A.Rustamyanın baxışlarının bölüşənlər kifayət qədər çoxdur. Onların fikrincə, ölkə hətta prinsipcə Qərbpərəst mövqe tutsa da, bu, heç bir halda birbaşa anti-Rusiya məntiqində özünü göstərməməlidir. Ancaq göstərir və hazırkı durumda İrəvan sanki Roma Papasından daha artıq katolik olmağa girişir. Yəni, özünü anti-Rusiya cəbhəsinin əsas qüvvəsi kimi göstərir və bir növ Ukraynanın yerinə iddialı təsiri bağışlayır. Ukraynadakı durum göz qabağındadır. Belə nəticəyə gəlmək mümkündür ki, Paşinyan və komandasının hərəkətləri Ermənistanı da qlobal qarşıdurma qurbanı aqibətinə doğru aparmaqdadır.

***R.ƏVƏZ***
***XQ***

# ATƏT PA-nın prezidenti ilə DTX-də görüş

**Noyabrın 14-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev ATƏT Parlament Assambleyasının prezidenti xanım Pia Kaumanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Qarabağda aparılmış hərbi əməliyyatlardan sonra Cənubi Qafqaz regionunda hökm sürən hazırkı durum, Qarabağ ərazisində insanların təhlükəsiz şəkildə yaşamasının təmin edilməsi, həmin bölgənin yüksək həddə minalarla çirkləndirilməsinin doğurduğu fəsadlar və münaqişə nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş şəxslərin taleyinin qeyri-müəyyənliyi əsas müzakirə mövzusu olub.

Komissiya sədri Əli Nağıyev hazırda dövlətimizin işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı yenidənqurma işlərini apardığını, lakin sözügedən ərazilərin əhəmiyyətli hissəsinin Ermənistan tərəfindən minalanmasının və dəfələrlə danışıqların mövzusu olmasına baxmayaraq, Azərbaycan tərəfinə mina xəritələrinin verilməməsinin və ya minaların yerlərinin qeyri-dəqiq təqdim olunmasının bərpa-quruculuq prosesinin sürətlə reallaşdırılmasına ciddi maneə törətdiyini qeyd edib. Mina terroru qurbanlarının hər ötən gün daha da artdığı nəzərə alınaraq digər beynəlxalq təşkilatlarla yanaşı, ATƏT-in də Ermənistana dəqiq mina xəritələrini verməsi üçün təzyiq göstərməsinin zəruriliyi vurğulanıb.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində 4000-ə yaxın vətəndaşımızın itkin düşməsi məsələsinə toxunan Əli Nağıyev bildirib ki, torpaqlarımızın işğaldan azad olunması onların axtarışını asanlaşdırsa da, lakin bununla belə xeyli sayda soydaşımızın taleyinə aydınlıq gətirmək hələ də mümkün olmayıb. Ermənistan bu istiqamətdə də qeyri-konstruktivlik nümayiş etdirərək azərbaycanlıların kütləvi basdırıldığı məzarlıqların yerlərinin tapılması sahəsində əməkdaşlıq etməkdən müxtəlif bəhanələrlə boyun qaçırır.

Dövlət Komissiyasının sədri Əli Nağıyev bütün bunlara baxmayaraq, Azərbaycanın bölgədə davamlı sülhün və sabitliyin bərqərar olması üçün səylərini əsirgəmədiyini, daima qonşuluq və dinc yanaşı yaşama prinsiplərini üstün tutaraq Qarabağda yaşayan erməni əsilli şəxslərin təhlükəsizliyinə hərtərəfli təminat və zəmanət verdiyini, Ermənistanla münasibətlərin normallaşdırılmasının və sülh müqaviləsinin imzalanmasının vacib olduğunu deyib.

Söhbət zamanı regionda dayanıqlı sülhün yaranmasına əlverişli imkanın mövcud olduğu bir vaxtda bəzi dövlətlərin bölgədə vəziyyəti yenidən gərginləşdirmək məqsədilə Ermənistanı silahlandırmasının qəbuledilməzliyi, belə halların yenidən müharibənin alovlanmasına səbəb olacağı qonağın diqqətinə çatdırılıb.

ATƏT Parlament Assambleyasının prezidenti xanım Pia Kauma isə öz növbəsində təmsil etdiyi təşkilatın Azərbaycanla Ermənistan arasında etimad quruculuğu prosesinə lazımi dəstək verə biləcəyini və bölgənin gələcək təhlükəsizliyi ilə bağlı öz mövqeyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

***XQ***

# Fransanın Azərbaycan barədə dezinformasiyası

**“Fransanın Azərbaycanla Ermənistan arasında münasibətlərə dair qərəzli, ermənipərəst mövqeyi Azərbaycan ictimaiyyətində və ölkəmizin jurnalist cameəsində narazılıq və narahatlıq doğurmaqdadır.**

Bu narazılığın müxtəlif media materiallarında, eləcə də ayrı-ayrı vətəndaşlara məxsus sosial şəbəkə profillərində ifadəsini tapması təbiidir. Təəssüf ki, dünyanın bəzi media orqanları məsələyə xüsusi rəng qatmaqda, cəmiyyətimizin Fransanın birtərəfli və qərəzli mövqeyindən haqlı etirazlarına qeyri-adekvat məzmun qazandırmaqda və mövcud xüsusda Azərbaycan dövlətini hədəfə almaqda, bütövlükdə respublikamız əleyhinə mənfi beynəlxalq rəy formalaşdırmaqdadırlar. Fransanın dezinformasiya ilə mübarizə qrupunun yaydığı son məlumatın Qərb mediasında tirajlanması da bu cür xoşagəlməz niyyətin göstəricisidir”. Bu fikirlər Azərbaycan Mətbuat Şurasının yaydığı bəyanatda əksini tapıb.

Bəyanatda, həmçinin bildirilib ki, “Reuters” agentliyinin xəbərinə görə, Fransanın dezinformasiya ilə mübarizə qrupu 2024-cü ildə Parisdə keçirilməsi nəzərdə tutulan Olimpiya Oyunlarının boykot edilməsi istiqamətində fəaliyyət göstərənlər arasında bir azərbaycanlının olduğunu müəyyənləşdirib: “Hazırda dünyada Fransanın qlobal miqyasda apardığı siyasətdən narazılığın artdığı şəraitində bu təşkilatın qərəzli şəkildə yalnız Azərbaycana köklənməsi anlaşılan deyil və son dərəcə bəsit yanaşmanın göstəricisidir”.

Hər bir şəxsin sosial şəbəkədə öz fikirlərini sərbəst şəkildə ifadə etmək hüququnun olduğunun, hazırkı qloballaşma dövründə sosial şəbəkələrdə xalq və millət məsələlərinin deyil, fərd anlayışının, o cümlədən istifadəçilərin öz düşüncə və baxışlarını yaymasının aktuallığının vurğulandığı bəyanatda sıravi bir sosial şəbəkə istifadəçisinin bölüşdüyü fikirlərin Azərbaycan dövləti ilə əlaqələndirilməsinə cəhd qeyri-peşəkar və bəsit yanaşma kimi qiymətləndirilib: “Onu da bildirməliyik ki, Azərbaycana münasibətdə qərəzli və çirkin kampaniya aparan Fransa mediasının davamlı və ardıcıl xarakter daşıyan yarıtmaz xəttinin təkanverici qüvvəsinin məhz Fransa dövləti olması artıq hamıya aydındır. Ölkənin nüfuzlu media orqanları belə təlimatları Yelisey sarayından aldıqlarını gizlətmirlər”.

Bəyanatda eyni zamanda Azərbaycan Mətbuat Şurasının belə mənfi təmayülləri qətiyyətlə pislədiyi vurğulanıb, dünya mediası Azərbaycan əleyhinə aparılan təbliğat kampaniyasında iştirakdan uzaq durmağa, həssaslıq nümayişinə, ölkəmizlə bağlı dezinformasiya yayımından, dəqiqləşdirilməmiş, təsdiqini tapmamış məsələləri işıqlandırmaqdan çəkinməyə, əsl həqiqətlərə diqqət yetirməyə çağırılıb.

# Qarabağ Zəfəri Azərbaycanı dünyada şərəfləndirdi

**Azərbaycanın Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov bu ölkənin nüfuzlu agentliyi olan vb.kg-yə eksklüziv müsahibə verib. Müsahibəni təqdim edirik.**




Qarabağ Zəfəri bütün Azərbaycan xalqının və təbii ki, Prezident İlham Əliyevin Qələbəsidir. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə işğal olunmuş torpaqlarını azad edərək işğala son qoydu.

Ölkədə sabitlik hökm sürür, azərbaycanlıların həmrəylik səviyyəsi həmişəkindən yüksəkdir, iqtisadi inkişaf göz qabağındadır. Azərbaycanın iqtisadiyyatı özünü təmin etmək gücündədir. Bunun üçün öz resurslarımız və səmərəli idarəçiliyimiz olan ölkə dünyanın ən nüfuzlu dövlətlərindən birinə çevrilib”, – deyə səfir Lətif Qəndilov əlavə edib.

**– Son illər Qırğızıstan–Azərbaycan əlaqələri də sürətlə inkişaf edir ki, siz və mən, cənab səfir, əlbəttə, bir az sonra bu haqda danışacağıq. İndi, o cümlədən ölkəmizdə İlham Əliyevin idarəçilik fenomeni haqqında çox danışılır. Müasir dünyada o, məşhur siyasətçilərdən biridir. Xalqın ona Prezident kimi etimadının reytinqi ardıcıl olaraq ən yüksək səviyyədə qalır. O, ölkədə və dünyada bu qədər yüksək etimadı necə qazanıb?**

– Qeyd edim ki, Prezident İlham Əliyevə etimadın reytinqi durmadan artır. Və bu təəccüblü deyil. Səbəb odur ki, ölkə başçısı bütün seçki vədlərini tam şəkildə yerinə yetirib. Genişmiqyaslı regional layihələr həyata keçirib. Nəticədə dövlətin gəlirləri artır, yeni iş yerləri açılır, sosial problemlər öz həllini tapır. Vətəndaşların rifahı liderimizin əsas prioritetinə çevrilib və bildiyimiz kimi, yalnız ölkədə ardıcıl olaraq aparılan iqtisadi islahatların balansı belə rifahın möhkəm təminatı ola bilər.

Son 20 ildə əldə olunan irəliləyiş göz qabağındadır. Ölkəmiz güclənib, dünya birliyində öz layiqli yerini tutub, dövlətimiz regionda və dünyada yüksək hörmət qazanıb. İndi Azərbaycan yeni tendensiyalar müəyyən edən faktiki və qeyd-şərtsiz liderdir. Bu illər ərzində Azərbaycan niyə uğur qazanıb? Çünki bizim milli maraqlarımız başqa dövlətlərin və dünya birliyinin maraqları ilə ziddiyyət təşkil etmirdi.

Bu, çox incə, hətta deyərdim ki, milli praqmatizmin, ölkə idarəçiliyinin yüksək səmərəliliyinin qlobal dünya siyasəti ilə unikal birləşməsidir. Fikrimcə, Prezident İlham Əliyevin və bir zamanlar Ümummilli liderimiz Heydər Əliyevin siyasətinin böyüklüyü məhz belə bir vəhdətə əməl etmək bacarığındadır. Hər bir ölkənin liderləri bu fenomenal idarəetmə tərzini bacarsalar, dünyanın irəliləyəcəyi aydın görünür. Lakin belə nailiyyətləri yalnız qeyri-adi və böyük şəxsiyyətlər qazanır. İlham Əliyev ölkənin davamlı inkişafının dünya iqtisadiyyatının maraqları ilə vəhdətdə, xüsusilə Qərblə Şərqin, Şimalla Cənubun birləşdirilməsində nümunə göstərir.

Azərbaycanın çox çətin iqtisadi dövrlər yaşadığı bir vaxtda Heydər Əliyev tarixi İpək Yolunun bərpası və Avropa–Qafqaz–Asiya (TRASEKA) Avro–Asiya nəqliyyat dəhlizinin tikintisi kimi iddialı qlobal planlar cızmağa başladı. Prezident İlham Əliyev isə faktiki olaraq Bakı–Tbilisi–Qars dəmir yolunu çəkməklə bu ideyanı həyata keçirdi. Bu gün Azərbaycan bu dəmir yolunun ötürücülük qabiliyyətini ildə 5 milyon tona, gələcəkdə isə 10-15 milyon tona çatdırmaq üçün onun inkişafına əlavə investisiyalar yatırmaq niyyətindədir. Bu, həqiqətən Şərq–Qərb, Şimal–Cənub Orta Transxəzər birləşdirici nəqliyyat dəhlizidir.

Təbii ki, İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin ilkin mərhələsində siyasi davamlılıq xəttini əsas götürdüyünü vurğulamaya bilmərəm. O, ölkəni idarə etmək bacarığını layiqli davamçısı olduğu Heydər Əliyevin idarəçilik yanaşmalarını davam etdirmiş və onlara yeni çalarlar gətirmişdir.

Dövlət başçısı bu illər ərzində səmərəli və balanslaşdırılmış idarəetmə üçün sarsılmaz zəmin yarada, milli səviyyədə sabitliyi və təhlükəsizliyi qoruyub möhkəmləndirə bildi, həmçinin milli iqtisadiyyatın keyfiyyətcə yüksəlişini təmin etdi. Ölkə irimiqyaslı neft-qaz layihələrini həyata keçirməyə nail oldu. Konkret misallar arasında Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Trans–Anadolu (TANAP) və Trans–Adriatik (TAP) kimi əsas ixrac neft kəmərlərini göstərə bilərəm. Enerji resurslarının Avropaya tədarükü üçün qaz kəmərlərinin inşası ölkənin qlobal iqtisadi sistemə yenidən inteqrasiyasına və böyük nəqliyyat-logistika mərkəzinə çevrilməsinə imkan yaratdı. Ona görə əminliklə deyə bilərik ki, İlham Əliyevin fərqləndirici xüsusiyyəti onun mütərəqqi ideyaları inam postulatına çevirmək bacarığıdır.

Xüsusilə vurğulamaq istərdim ki, bizim bütün yollarımız, boru kəmərlərimiz heç bir ölkənin maraqlarına zidd deyil, qlobal nəqliyyat şəbəkəsini tamamlayır, enerji təhlükəsizliyini artırır. Yaxşı olar ki, bəzi regionlar digər regionların imkanlarından yararlana bilsinlər ki, bu da sülhün və sabitliyin qorunmasına kömək edir. Bu, ölkəmizin milli maraqları ilə dünya düzəninin maraqlarının vəhdətidir.

**– Cənab səfir, Qarabağdakı hazırkı vəziyyət haqqında nə deyə bilərsiniz? Qarabağ məsələsi artıq, həll olunubmu?**

– Bəli, Azərbaycan Ermənistanın uzunmüddətli işğalına son qoyub. İndi Azərbaycan bayrağı işğaldan azad olunmuş bütün ərazilərdə dalğalanır. Bu, hamı üçün tarixi hadisədir. Prezident İlham Əliyevin Xankəndidə Azərbaycan bayrağının qaldırılması mərasimində dediyi kimi, 20 il əvvəl prezident kimi fəaliyyətə başlayarkən, bayrağımızı Azərbaycanın işğal olunmuş bütün torpaqlarında dalğalandırmağı qarşısına vəzifə qoymuşdu. Bu onun bütün həyatının məqsədinə çevrildi. Və Prezident İlham Əliyevin dəqiq qeyd etdiyi kimi, “Ölkə günü-gündən bu müqəddəs məqsədə doğru irəliləyir, hər bir sakin öz zəhməti ilə onun nailiyyətini daha da yaxınlaşdırırdı”.

Niyə? Çünki xalqın öz rəhbərinə sonsuz inamı və etimadı var idi. Azərbaycan uzun illərdir ki, beynəlxalq aləmdə öz iddiasını addım-addım sübuta yetirir və ərazi bütövlüyünü sülh yolu ilə müdafiə edirdi. Ermənistanın təcavüzkar əməlləri nəticəsində ərazimizin 20 faizi işğal edilmişdi, bir milyon vətəndaşımız öz yurd-yuvasını tərk etmək məcburiyyətində qalmışdı. Təkcə 1988-ci ildə 250 min soydaşımız Ermənistandan bir neçə saat ərzində vəhşicəsinə qovulmuş, döyülərək, şikəst edilərək, ayaqyalın, dağlardan keçərək Azərbaycana pənah gətirmişdi.

Ermənistan 30 ildir ki, işğal etdiyi ərazilərdə qeyri-qanuni fəaliyyətlə məşğul idi. Demoqrafik vəziyyəti dəyişmək üçün dünyanın digər ölkələrindən ermənilərin köçürülməsi siyasəti həyata keçirirdi. Ölkə Azərbaycan xalqının zəngin mədəni irsini, o cümlədən dini abidələri məqsədyönlü şəkildə məhv edib. Ermənilər təbii sərvətlərimizi qeyri-qanuni yolla çıxarıb, həmçinin nəzarətsiz ərazilərdən narkotik vasitələrin yetişdirilməsi üçün istifadə ediblər.

Bu müddət ərzində Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların platformalarından geniş və bacarıqla istifadə edib. 2012-2013-cü illərdə Azərbaycan postsovet məkanında ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olub. Bu, Qarabağla bağlı bütün həqiqətləri - orada aparılan işğal, deportasiya, etnik təmizləmə ilə bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq üçün edilib. Bizim mübarizəmiz yalnız beynəlxalq hüquqa və onun prinsiplərinə əsaslanırdı. Prezidentimiz bütün beynəlxalq səviyyələrdə, platformalarda Qarabağ həqiqətlərini çatdırdı. İlham Əliyevin 44 günlük müharibə dövründəki fəaliyyəti diplomatiya nəzəriyyəsinə daxil ediləcək. Dövlətimizin başçısı özü təkcə dünyanın mətbuat orqanlarının bütün hiyləgər suallarını qətiyyətlə və ustalıqla cavablandırırdı.

İlham Əliyevin müdrik neft strategiyası sayəsində ölkəmizin gəlirlərini hərbi quruculuğa yönəltmək, 35 il strateji səbr nümayiş etdirməklə, işğal olunmuş torpaqları azad edə biləcək ordu yaratmaq mümkün olub. Təkcə onu demək kifayətdir ki, son 20 ildə ölkə iqtisadiyyatına 310 milyard ABŞ dolları sərmayə qoyulub.

Azərbaycan xalqı isə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin heç birinin yerinə yetirilmədiyini görəndə BMT Nizamnaməsinin 51-ci bəndinin icrasını öz üzərinə götürdü və ədaləti təmin edə bildi. Tarixdə əbədi qalacaq Qələbə qazanıldı. Azərbaycan xalqı Ali Baş Komandanı ilə həmişə fəxr edəcək.

Eyni zamanda, biz Qarabağın erməni sakinlərinin çıxarılması barədə heç vaxt söz açmamışıq. Əksinə, biz bunu etməyə hazırlaşmayacağımızı dəfələrlə bəyan etmişik. Ayrılmaq qərarı onların seçimi idi. Azərbaycan hələ də 1991-ci ilə qədər orada yaşayan hər kəsi, eləcə də onların nəslini geri almağa hazırdır. Gəlsinlər yaşasınlar, biz onlara tam təhlükəsizliyə zəmanət veririk.

Biz azərbaycanlılar üçün tolerantlıq həyat tərzidir. Necə deyərlər, Allah bağışladı, biz də bağışlayacağıq, təbii ki, vəhşiliklərinə görə cavab verməli olan hərbi cinayətkarlar istisna olmaqla. Heç bir cinayət cəzasız qalmamalıdır, əks halda pislik təkrarlana bilər.

Və əgər Ermənistanla sülh müqaviləsi imzalansa, o zaman Azərbaycan onunla iqtisadi əlaqələr qurmağa hazırdır. Ermənistan yalnız iqtisadi əməkdaşlıqdan və yükdaşımalardan faydalanacaq. Əgər Ermənistan tərəfi bu cür təmaslara razı deyilsə, o zaman bizim İranla bu ölkənin ərazisindən keçməklə Naxçıvana doğru magistral yol açmaq barədə artıq razılaşmamız var. Gələcəkdə isə bu ərazidən dəmir yolunun çəkilməsi nəzərdə tutulur.

***XQ***

# Cənub Qaz Dəhlizinin iqtisadi səmərəsi artır




(əvvəli 1-ci səhifədə)

Hesabatda, həmçinin qeyd olunur ki, 2023-cü il iyulun 1-nə qurumun aktivləri 14 milyard 704 milyon 831 min dollar, o cümlədən öhdəlikləri 8 milyard 274 milyon 476 min dollar, balans kapitalı isə 6 milyard 430 milyon 355 min dollar təşkil edib.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Prezidenti İlham Əliyevin "Şahdəniz qaz-kondensat yatağının istismarının II mərhələsi və "Cənub Qaz Dəhlizi"-nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 25 fevral 2014-cü il tarixli sərəncamı ilə "Şahdəniz" qaz-kondensat yatağının tam miqyaslı istismarı, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrində dövlətin iştirak paylarının birləşdirilməsi, idarə edilməsi və maliyyələşdirilməsi məqsədilə təşkil olunub. Qurumun nizamnamə kapitalı 2 milyard 415,8 milyon ABŞ dollarıdır. Şirkətin səhmlərinin 51 faizi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, 49 faizi isə Dövlət Neft Şirkətinə (SOCAR) məxsusdur.

"Cənub Qaz Dəhlizi"nin əsas məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir.

Qeyd edək ki, 2011-ci ildə Avropa Komissiyası və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalayıblar. Sözügedən sənəd TANAP və TAP-la bağlı hökumətlərarası sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri üçün zəmin yaradıb. Bir il sonra isə Azərbaycan və Türkiyənin dövlət başçıları Trans-Anadolu Qaz Boru Kəməri ilə bağlı müqaviləyə imza atıblar.

Cənub Qaz Dəhlizinin təməli 2014-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələri Cənub Qaz Dəhlizinin əsas seqmentləri sayılır. XXI əsrin nəhəng enerji dəhlizinin açılışı isə 2018-ci il mayın 29-da Bakıda baş tutub.

Cənub Qaz Dəhlizinin ilk seqmenti olan "Şahdəniz-2" layihəsi Azərbaycan qazını Avropa və Türkiyəyə çatdıran nəhəng enerji layihəsidir. Sözügedən layihə "Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasil olunan illik 10 milyard kubmetrdən əlavə daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutur. 2006-cı ilin sonlarında istismara verilmiş "Şahdəniz" yatağının ilkin balans ehtiyatı 1 trilyon kubmetrdən artıq təbii qaz və 2 milyard bareldən artıq kondensat həcmində qiymətləndirilib. "Şahdəniz-2" layihəsi Avropa bazarlarının "mavi yanacaq"la təchizatına, bir sıra ölkələrin enerji təhlükəsizliyinə mühüm töhfələr verir.

Cənub Qaz Dəhlizinin yaradılması, ilk növbədə, 2006-cı ilin sonlarında istifadəyə verilmiş Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi zərurətini yaradıb. Bu məqsədlə marşrutun Azərbaycan ərazisindən keçən hissəsində yeni boru kəməri inşa olunub. Bununla da, illik ötürmə qabiliyyəti 7,4 milyard kubmetr təşkil edən Cənubi Qafqaz Boru Kəmərinin gücü 24 milyard kubmetrə çatdırılıb. Gələcəkdə isə lazım gəldiyi təqdirdə kəmərin illik ötürmə qabiliyyəti 34 milyard kubmetrə çatdırıla bilər.

"Şahdəniz" qazını Türkiyənin dərinliklərinə nəqlini həyata keçirən TANAP-ın təməlqoyma mərasimi 2015-ci il martın 17-də Türkiyənin Qars şəhərində keçirilib. Bununla da, boru kəmərinin inşasına start verilib. 12 iyun 2018-ci il tarixində isə Əskişəhərdə Cənub Qaz Dəhlizinin mühüm hissəsi olan Trans-Anadolu Boru Kəmərinin açılışı olub. Həmin ayın 30-da ilk kommersiya qazının bu kəmərlə Türkiyəyə nəqlinə başlanılıb. Noyabrın 30-da isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Uzunluğu 1850 kilometr olan TANAP-ın illik ötürmə gücü hazırda 16,2 milyard kubmetr təşkil edir. Azərbaycanın zəngin qaz ehtiyatları, eləcə də Avropada "mavi yanacağa" tələbatın artması ilə əlaqədar gələcəkdə sözügedən kəmərin illik ötürmə qabiliyyətinin 30,7 milyard kubmetrədək artırılması gözlənilir.

Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik Boru Kəməri Xəzər regionunun qazını Avropaya nəql etmək məqsədilə inşa edilib. Adıçəkilən kəmərin təməlqoyma mərasimi 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində keçirilib və tikinti işlərinə başlanılıb. Qeyd edək ki, uzunluğu 880,8 kilometr olan kəmərin 551,5 kilometri Yunanıstan, 215,9 kilometri Albaniya, 105 kilometri Adriatik dənizi, 8,4 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda kəmərlə il ərzində 10 milyard kubmetr qaz nəql olunur. Lakin yaxın illərdə Avropaya qaz tədarükünün artması ilə əlaqədar olaraq bu həcmin 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TAP kəməri 2020-ci il noyabrın 15-də istismara verilib və kommersiya fəaliyyətinə başlamağa hazır vəziyyətə gətirilib. Həmin il dekabrın 31-də isə Azərbaycan kommersiya qazının TAP vasitəsilə Avropaya tədarükünə başlanılıb. Bununla da, ölkəmiz Avropanın bazarının mühüm qaz tədarükçülərindən birinə çevrilib. Yeri gəlmişkən, 2021-ci ildə 8,2 milyard kubmetr, 2022-ci ildə isə 11,4 milyard kubmetr təbii qaz Azərbaycandan Trans-Adriatik Boru Kəməri ilə Avropaya daxil olub.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Son 20 ildə ölkəmizdə həyata keçirilən aqrar islahatlar nəticəsində ərzaq təhlükəsizliyi prioritet elan edilib, sektorun dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradılıb. Bunun sayəsində mühüm növ kənd təsərrüfatı məhsullarının istehsalı artıb, əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi xeyli yüksəlib, istehsal həcmi real ifadədə 2 dəfədən çox yüksəlib. Ötən müddətdə qeyri-neft sektorunda yaradılan əlavə dəyərin orta hesabla 10 faizi aqrar sahədə gerçəkləşdirilib.**

# Dövlət dəstəyi ərzaq bolluğuna təminat yaradır



Ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə reallaşdırılan tədbirlər nəticəsində cari ilin ötən dövründə kənd təsərrüfatı üzrə inkişaf dinamikası qeydə alınıb, yanvar-sentyabr aylarında sözügedən sahədə 3 faiz artım əldə edilib. Bu dövrdə bitkiçilik sahəsində 2003-cü illə müqayisədə meyvə və giləmeyvə istehsalı 2,2 dəfə, kartof, tərəvəz və bostan məhsullarının istehsalı 1,6 dəfə yüksəlib. Eyni zamanda, 2003-cü ildən sonra ət və süd məhsulları istehsalında artım sürətlənib. Başqa sözlə, əhalinin tələbatının daha yüksək olduğu ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 2022-ci ildə 86 faizə, süd və süd məhsulları üzrə isə 83,3 faizə çatdırılıb.

Bütün bu rəqəmlər aqrar sahəyə dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi və çoxşaxəli dəstək sisteminin yaradılması, kənd təsərrüfatı istehsalçılarına verilən birbaşa subsidiyaların əhatə dairəsinin genişləndirilməsi ilə əldə olunub. Başqa sözlə, kənd təsərrüfatında müsbət dinamika yanacaq və motor yağlarına, mineral gübrələrin, pestisidlərin satışına, toxum və tinglərin istehsalına və satışına, buğda və çəltik əkinlərinə, təkrar əkinlərə, pambıq və şəkər çuğunduru satışına görə subsidiyaların verilməsi ilə başlanılıb.

Yeri gəlmişkən, son illərdə aqrar islahatların daha da sürətlənməsi üçün bir sıra texnika və texnoloji avadanlıqlar idxal rüsumundan azad olunub, satışı subsidiyalaşdırılıb. Məsələn, fermer tərəfindən texnikanın ilkin dəyərinin 20 faizi ödənildikdə büdcə vəsaiti hesabına idxal dəyərinin 40 faizi həcmində güzəşt edilir. Bununla yanaşı, müasir suvarma sistemləri dəsti və avadanlıqlarının, soyuducu anbar və avadanlıqların alışına dövlət büdcəsi hesabına 40 faiz güzəşt tətbiq olunur.

Ötən müddətdə istehsalı yüksək iqtisadi səmərəliliyə malik olan meyvə bağlarının genişləndirilməsini stimullaşdırmaq üçün dövlət tərəfindən intensiv bağların salınmasına lazımi dəstək göstərilib, böyük məbləğdə birdəfəlik subsidiyalar verilib. Bu tədbirlər nəticəsində sitrus, o cümlədən çayirdəkli meyvələrin və narın ixracı dəfələrlə yüksəlib. Məsələn, 2022-ci ilin yanvar-sentyabr ayı ilə müqayisədə cari ilin müvafiq dövründə sitrus meyvələrinin ixracı 10 dəfədən çox, nar ixracı isə 3 dəfə artıb.

Yuxarıda sadalananlarla yanaşı, torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini yüksəltmək üçün Azərbaycan Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanla respublikada yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq bu ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının da ödənilməsinə başlanılıb.

Beləliklə, aqrar sahəyə ayrılan subsidiyaların və güzəştlərin həcmi 2007-2022-ci illər ərzində 10 dəfəyə yaxın artaraq 450 milyon manat olub. Nəticədə, texnika parkının yenilənməsi və aqrotexniki xidmətlərə əlçatanlığın, toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi yüksəlib, kənd təsərrüfatı sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Aqrar sahədə diqqətdə saxlanılan tədbirlərdən biri də dövlət dəstəyi ilə aqrar sığorta mexanizminin yaradılmasıdır. Bu mexanizmin tətbiqi ilə hesablanan sığorta haqqının 50 faizinin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulub. Belə bir aqrar sığorta mexanizminin işə salınması sayəsində əkin sahələri çoxsaylı risklərdən, o cümlədən təbiət hadisələrindən–dolu, donvurma (şaxtavurma), leysan yağışları, subasma, qasırğa, fırtına və s. hallardan sığortalanıb, əhatə dairəsi isə ildən-ilə genişlənib.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, son 20 ildə səmərəli idarəçiliyin təmin edilməsi və innovasiyaların geniş yayılmasının dəstəklənməsi prinsipləri əsasında çevik inkişaf mexanizmləri formalaşdırılıb, institusional quruculuq yeni səviyyəyə yüksəlib, idarəetmə strukturları təkmilləşdirilib. Aqrar sahədə göstərilən xidmətlərin səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə Azərbaycan Prezidentinin müvafiq fərmanına əsasən, 2020-ci ildən dövlət tərəfindən göstərilən baytarlıq xidmətləri özəlləşdirilib, 1600-dən çox dövlət baytarlıq işçisi özəl baytar kimi fəaliyyətə başlayıb. Bununla da, xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı peyvəndlənmənin büdcə hesabına maliyyələşdirilməsi dövlət sifarişi əsasında özəl baytarlarla müqavilə bağlamaq yolu ilə reallaşdırılıb.

Bu gün aqrar sahədə həyata keçirilən institusional islahatlar çərçivəsində respublikada yeni yaradılan dövlət aqrar inkişaf mərkəzlərində kənd təsərrüfatı məhsulları istehsalçılarına və emalçılarına "vahid pəncərə", operativlik və şəffaflıq prinsipləri əsasında aqroservis, aqrokimyəvi, informasiya-məsləhət kimi 70-dən artıq xidmət göstərilir.

Bütün bunlarla bərabər, aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı son illərdə həyata keçirilən mühüm tədbirlər sırasında aqroparkların yaradılması da xüsusi yer tutur. Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə dövlət-özəl tərəfdaşlığı mexanizmləri əsasında ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı, ilkin emalı və satışının mütərəqqi forması kimi aqroparkların yaradılması getdikcə vüsət alır. Aqrar sahədə bu tip müəssisələrin formalaşdırılması və fəaliyyəti çərçivəsində aqrobiznes sahələrinə investisiya qoyuluşları həm müvafiq infrastrukturun yaradılmasına dövlət tərəfindən investisiyaların qoyulması, həm də güzəştli kreditlərin verilməsi ilə stimullaşdırılır.

*Vaqif BAYRAMOV*
*XQ*

# Böyük Britaniya Azərbaycan iqtisadiyyatının ən böyük investorudur

**Böyük Britaniyanın Biznes və Ticarət Departamentinin Azərbaycan üzrə direktoru, Şərqi Avropa və Mərkəzi Asiyada energetika üzrə aparıcı mütəxəssisi Coel Con Derbişir Beynəlxalq Ticarət Həftəsi çərçivəsində keçirilən vebinarda son otuz ildə ölkəsinin Azərbaycanda ən böyük fərdi investor olduğunu bildirib.**



O, 1995–2022-ci illər ərzində Böyük Britaniyanın respublikamıza yatırdığı iinvestisiyaların 84 milyard dollar təşkil etdiyini vurğulayıb. Coel Con Derbişir 1994-cü ildə Azərbaycan hökumətinin BP şirkəti ilə məşhur "Əsrin müqaviləsi"ni imzaladığını və bununla Azərbaycanla Böyük Britaniya arasında möhkəm ikitərəfli investisiya tərəfdaşlığının təməlinin qoyulduğunu qeyd edib.

Direktor sözlərinə həmçinin, 2022-ci ildə iki ölkə arasında ticarətin həcminin 1,2 milyard funt sterlinq olduğunu və Azərbaycanda 400-ə yaxın Böyük Britaniya şirkətinin aktiv fəaliyyət göstərdiyini əlavə edib.

Coel Con Derbişir çıxışının sonunda Azərbaycanın Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdən keçən ticarət yollarının kəsişməsində yerləşdiyini, əsrlər boyu ölkəmizin Şərqdən Qərbə uzanan məşhur İpək Yolunun bir hissəsi olduğunu, hazırda coğrafi mövqe baxımından Xəzər dənizindən keçən və Çinlə Avropanı birləşdirən Orta Dəhlizin inkişafı üçün geniş imkanlar açdığını vurğulayıb.

*XQ*

# İnflyasiya: üzü enişə

**2023-cü ilin 9 ayında Azərbaycanda inflyasiya 10,9 faiz təşkil edib. Bunu Milli Məclisin bazar ertəsi keçirilən iclasında dövlət büdcəsinin müzakirəsi zamanı iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.**



Nazir bildirib ki, qeyri-neft sektorunun bütün sahələrində artım qeydə alınıb. Onun sözlərinə görə, bu ilin ötən dövründə qeyri-neft sektorunun ixracı 11 faiz artaraq 2,7 milyard manata çatıb. Bunun da nəticəsində xarici ticarət profisiti qeydə alınıb.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 33 milyard 399 milyon 895 min manat, yerli gəlirləri 773 milyon 105 min manat, mərkəzləşdirilmiş xərcləri 35 milyard 980 milyon 547 min manat, yerli xərcləri isə 782 milyon 453 min manat) məbləğində nəzərdə tutulur.

*XQ*



# Laçının kəndləri də nura boyanır

**Ölkə Prezidenti İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Laçın rayonunun bir neçə kəndində yenidənqurma işləri həyata keçirir.**

Bu barədə XQ-yə qurumdan məlumat verilib. Bildirilir ki, hazırda rayonun Cağazur, Qorçu və Qaragöl istiqamətində elektrik şəbəkələri yenilənir. Bununla yanaşı, Laçın şəhəri daxilində yeraltı xətlərin çəkilişi davam edir. Eyni zamanda, rayonun Şəlvə, Qaragöl, Zağazur və Minkənd istiqamətinə çəkilən 35 kilovoltluq hava xətti də tamamlanmaq üzrədir.

Qeyd edək ki, "Azərişıq" elektrik təsərrüfatının yenidən qurulması ilə bağlı işləri ölkənin bütün regionlarında paralel olaraq davam etdirir.

*XQ*

# 10 ayda ÜDM 100 milyard manata çatıb

**2023-cü ilin yanvar–oktyabr aylarında ölkəmizdə 100,9 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.**




Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,3 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,1 faiz artıb.

ÜDM istehsalının 41,3 faizi sənaye, 9,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 5 faizi tikinti, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18 faizi digər sahələrin payına düşüb. İlin 10 ayında məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil edib. Hesabat dövründə əhalinin hər nəfərinə düşən ÜDM 9 min 938,7 manata bərabər olub.

*XQ*

# Bakıdan Laçına köç karvanı...



## Doğma yurd yerlərinə qayıdan ailələrin dərya boyda sevinci...

**Dünən sübh tezdən, daha dəqiq desək, saat 5.45 radələrində qəzetimizin gənc fotomüxbiri ilə Qaradağ rayonunda bir neçə il əvvəl qaçqın ailələri üçün inşa olunmuş “Qobu-park-3” yaşayış kompleksində idik. Hava işıqlanmamışdı, Alatoran idi. Amma ətrafda xeyli adam vardı. Bunlar Laçın rayonundan olan keçmiş məcburi köçkün ailələri idi.**



Bu ailələri ilk dəfə dəfə idi ki, görürdüm. Çox həyəcanlı idilər. Onları başa düşmək olardı. Axı, həyatlarında olduqca əlamətdar bir hadisə baş verirdi. Otuz bir il həsrətində olduqları doğma Laçına qayıdırdılar...

Uzun illərdir ki, jurnalistika sahəsində çalışıram. Etiraf edirəm ki, belə təsirli həyati səhnələr ilə az rastlaşmışam. Özümü bu insanların hər birinin yerində hiss edirdim. Bu arada baş redaktor Əflatun Amaşov zəng etdi. Bir daha dönə-dönə tapşırdı ki, laçınlı ailələrlə yaxından tanış olub, onların arzu və düşüncələrini mütləq dinləyib qələmə alaq.

**Biz vaxt itirmədən bir-bir laçınlılara yaxınlaşır, onların ürək sözlərini dinləyirdik. Əvvəlcə burada hamının xüsusi hörmətlə yanaşdığı ağsaqqal Rüstəm Rüstəmovla tanış olduq. Dağ cüssəli kişi sözün əsl mənasında kövrəlmişdi:**

– Laçını tərk edəndə hələ 50 yaşım yox idi, amma indi 77 yaşımda qayıdıram. Keçirdiyim hissləri sözlə təsvir etməyə acizəm. İnanın, bütün gecəni diri gözlü açmışam. Bəlkə qəlbimdə min dəfə cənab Prezidentə, onun ailəsinə dualar etmişəm.

Rüstəm kişinin səsi birdən qırıldı. Onu qəhər boğmuşdu. Bu, sevincdən doğan göz yaşları idi.

**Burada üçrəngli bayrağımıza sarılan məktəbli oğlan hamının diqqətini özünə cəlb etmişdi. Telekameraların çoxu onun üzərinə tuşlanmışdı. Amma, uşaq özünü itirmir və qürurla deyirdi:**

– Biz laçınlıyıq, doğma yurda gedirik, orada mənim atam, babamgil yaşayıb. Biz indi o gözəl torpaqlarda, Vətəndə yaşayacağıq.

**Uşaqdan soruşdum:**

– Laçın haqqında sənə ilk dəfə kim danışıb?



**Yeniyetmə həmsöhbətim ötkəm səslə belə cavab verdi:**

– Atam! Mən artıq orada olmuşam. Atamla bir yerdə getmişdik. Həqiqətən, oralar çox gözəldir.

**Sonra İmarət Rüstəmova adlı ağbirçək ana ilə də həmsöhbət olduq. Ana ürəkdolusu alqış edirdi:**

– Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə can sağlığı, səbr versin.

**Ağbirçək sonra kövrək səslə dedi ki, o, bütün şəhid analarının əllərindən öpməyə, qarşılarında diz çökməyə hazırdır:**

– Biz o şəhidlərin, qazilərin qanı, canı bahasına qayıdırıq evimizə. Allah xalqımızı qorusun!

**Gülay Tağıyeva adlı laçınlı xanımın da ürək sözləri çox təsirli idi:**

– Düzdür, Azərbaycanın hər bir guşəsi gözəldir, əzizdir. Amma, Laçın bizim üçün daha əzizdir, doğulduğumuz torpaqdır, Vətəndir!

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) nümayəndəsi də burada idi. Bizim şifahi sorğumuza əsasən bildirdi ki, bu gün



“Qobu-park-3” yaşayış kompleksində məskunlaşan 10 ailə – 40 laçınlı məcburi köçkünün təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmaları üçün şərait yaradılıb. Onlar dövlətimiz tərəfindən bərpa edilən və ya yenidən inşa edilən evlərdə yaşayacaqlar. Orada onlar üçün hər cür şərait yaradılıb. Bununla da Laçın şəhərində 325 ailə, yəni 1245 nəfərin daimi məskunlaşması təmin edilib.

Artıq səhər 6.30-dur. Yola düşəcək ailələrin məişət əşyaları xüsusi yük maşınları yola salındı. Sonra isə ailələr rahat avtobuslara əyləşməyə başladılar. Bir neçə dəqiqədən sonra ətrafdakıların alqış sədaları altında köç karvanı yola düşdü. Onları təcili yardım maşınları və həkim briqadası müşayiət edirdi.

Yuxarıda həmsöhbət olduğumuz QMKİDK-nin nümayəndəsi KİV mənsublarına müjdə verdi ki, yaxın günlər ərzində “Qobu-park-3”-də məskunlaşan digər ailələr də öz doğma ocalqarına yola salınacaqlar.

**Fotomüxbir həmkarımı axtarıb taparaq ona dedim:**

– Elşən, təcili redaksiyaya qayıdıb materialları qəzetin “Xalq TV”-nin “youtube” kanalına, saytına yerləşdirmək lazımdır. Yəqin ki. qəzet üçün də reportaj yazmalı olacağıq!

Beləcə, Qobudan Bakıya qayıtdıq. Yolda hazırlayacağım reportajın sərlövhəsini düşünürdüm. Fikirləşdim ki, sərlövhə belə olsa yaxşı olar:

“Bakıdan Laçına köç karvanı...”

***

Dünən daha 40 nəfər laçınlının yurd həsrəti bitib. 31 ildən sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub. Onlar



şəhərdə böyük coşqu ilə qarşılanıblar.

Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Laçına qədəm qoyan ailələr qarşılandıqdan sonra Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Şərqi Zəngəzur İqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin və “Bakı Abadlıq Xidməti” MMC-nin nümayəndələrinin iştirakı ilə açarların təqdim edilməsi mərasimi olub.

Ailələr evlərinin açarlarını sevinc hissi ilə təhvil alıblar.

Bununla da Laçın şəhərində 325 ailənin, yəni 1245 nəfərin daimi məskunlaşması təmin edilib.

***Kəmalə ABDİNOVA,***
***Elşən AĞALAR (foto)***
***XQ***



## BEYNƏLXALQ HƏYAT

# Avropada antisemitizm: köhnə və yeni dalğa

**Qoca Qitənin “başı əsir” və şüuru “dumanlanır”. Əsrlərdir insan haqlarının beşiyi sayılan Avropanın demokratiya “sütunları titrəyir”.**

Artıq kütlə Avropada heç dövlət və hökumət başçılarını da dinləmir. Qitənin ən inkişaf etmiş ölkələrində belə irqçilik yeni səviyyəyə yüksəlir. Bunu Avropa İttifaqının Komissiyasının yaydığı son bəyanatı da təsdiqləyir Sənəddə bildirilir: “Avropa yəhudiləri bu gün yenidən qorxu içində yaşayırlar”.

Avropa ölkələrini birləşdirən bir təşkilatın rəsmi mövqeyi belədirsə, deməli vəziyyət son dərəcə ciddidir. Lakin tarixi rakursda duruma nəzər salsaq, qeyri-adi və ya təəccüblü bir məqam yoxdur. Çünki qitənin tarixində buna bənzər mövqelər həmişə olmuşdur. Son 35 ildə müstəqilliyini əldə etmiş ölkələrə qarşı özünü göstərən ikili standart siyasətinə məruz qalmış xalqlar təcrübələrində avropalıların real kimliyini yaxşı anlamışlar. Əlahəzrət faktlar “danışsın”!

### “Qara Əzrail” və kütləvi qətllər

“Antisemitizm” yəhudilərə qarşı nifrət və ayrı-seçkiliyi (diskriminasiya) ifadə edir. Alimlər bu hərəkatın böyük ölçüdə Avropada qədimdən yarandığını yazırlar. Qədim Yunanıstan və Roma İmperiyasının siyasi mərkəzlərində antisemitizm əlamətləri mövcud olmuşdur. Ancaq orta əsrlərdə xüsusi amansız məzmun almışdır.

Bəli, orta əsrlərdə Avropanın iri dövlətləri olan Fransa, Almaniya, İngiltərə, Portuqaliya, İspaniya və başqalarında yəhudilərə “qara ölüm” gətirənlər kimi baxmışlar. Bunun kökündə xristianlıq dayanırdı. O dövrdə avropalılar hesab edirdilər ki, İsa peyğəmbərin ölümündə bütün yəhudi xalqı günahkardır. Dəlil kimi Pontiy Pilatın “qanlı lənətləməsi”ni – “mən bu insanın (İsa peyğəmbər nəzərdə tutulurdu – red.) ölümündə günahkar deyiləm, özünüz buna əmin olacaqsınız”, deyib əllərini yumasını gətirirdilər.

Buna inanan avropalılar 1095-ci ildə yəhudilərə qarşı səlib yürüşü etmişlər.




Bu, Fransa və Reyn əyalətində güclü olmuşdur. Nəticədə bir neçə yəhudi icması doğranmışdır.

XIV əsrdə isə antisemitizm Avropada daha absurd məzmun və istiqamət almışdır. O dövrdə yəhudiləri vəba xəstəliyini törətməkdə ittiham etmişlər. Buna “qara ölüm” adı verilmişdir. Belə çıxır ki, “qara ölümü” “qara Əzrail” kimi təsəvvür edilən yəhudilər yaratmışlar!

1348–1350-ci illərdə qərbi və mərkəzi Avropada çoxlu sayda yəhudi icması məhv edilmişdir. Bu işdə Strasburq (indi Avropanın insan haqlarını qoruyan mərkəzidir) fərqlənmişdir. Almaniyada isə o zaman 300-ə yaxın yəhudi icmasının varlığına son qoyulmuşdur. Bundan başqa, İngiltərə, Fransa və Almaniyanın müxtəlif əyalətlərindən minlərlə yəhudi deportasiya olunmuşdur.

Yəhudiləri “qara ölüm”də günahlandıranların özləri daha qara əməllər törətmişlər. Çünki minlərlə günahsız insanı kütləvi qətlə yetirməyin başqa adı yoxdur! Proses XX əsrdə Avropada özünün yeni mərhələsinə qədəm qoymuşdur.

### Avropada antisemitizm

XX əsrdə faşist Almaniyası zamanı dünya tarixinə “Holokost soyqırımı” adlı bir hadisə yazıldı. Bir neçə onilliklər sonra rəsmi Berlin bu soyqırımı etiraf etdi və yəhudi xalqından üzr istədi, müəyyən kompensasiyalar ödədi! Almanlar antisemitizmi rəsmən boyunlarına aldılar!

Ancaq belə görünür ki, Avropa siyasi dairələri və cəmiyyətləri hələ də bu mərəzdən qurtulmamışlar. Hətta Fransa prezidenti Emmanuel Makron belə narahatdır. Niyə “hətta”? Çünki Fransa Afrikada çoxlu sayda soyqırım törətmişdir və belə yarıtmaz əməllərə alışıqdır. Buna baxmayaraq, E.Makron fransız cəmiyyətinə antisemitzmlə bağlı müraciət etmişdir. O, Fransada yəhudilərə qarşı antisemit əhval-ruhiyyəni “dəhşətli hal” adlandırmışdır. Adi insanlar küçəyə çıxa bilmirlər. Onlar uşaqlarını məktəbə aparmaqdan çəkinirlər. Fransa prezidenti hesab edir ki, “bu cür Fransa Fransa deyildir”!

Almaniyada da oxşar vəziyyətdir. Ölkənin federal komissarı Feliks Klayn “The Guardian” qəzetinə müsahibəsində “keçmişin dəhşətli anları qayıdır” kimi ifadə işlətmişdir. Onun sözlərinə görə, Almaniyada antisemitizm məzmunlu cinayətlər 29 faiz artmışdır! F.Klayn həyəcanla deyir: “insanlar şoka düşmüşlər...”

Kansler Olaf Şolts isə “bizim Holokosta görə məsuliyyətimiz, bizim tariximiz...” deyə yeni bir antisemitizmin vüsət almasından narahatlığını bildirir.

Fransa və Almaniya rəsmilərinin həyəcanının əsaslı olduğunu sosioloji sorğular da təsdiqləyir. Almaniyanın ARD qrupu bu ilin oktyabrında keçirdiyi sorğu nəticəsində müəyyənləşdirib ki, ölkədə antisemitizm 2018-ci ildəki 40 faizdən 2019-cu ildə 59 faizə yüksəlmişdir! “Avropbarometr”in apardığı sorğuda isə yəhudilərin 89 faizi qorxu keçirdiyini dilə gətirmişlər. Onların 38 faizi Avropa İttifaqını tərk etmək niyyətini bildirmişlər. Dünya mediası Böyük Britaniyada da oxşar vəziyyətin yarandığından bəhs edir.

### İrqçilik dalanı

Əslində, Avropanın inkişaf emiş ölkələrində insan haqlarına qarşı bu dərəcədə ifrat münasibətin olması bizi təəccübləndirmir. Ortada həm keçmiş tarix, həm də Ermənistanın Azərbaycana təcavüzünə “demokrat və liberallar”ın münasibəti var. 30 illik işğal dövründə Fransa və Almaniya azərbaycanlıların adi insan haqlarının qorunması istiqamətində kiçik addım belə atmadılar. Onların leksikonunda, ümummiyyətlə, “azərbaycanlı qaçqınların hüququ” ifadəsinə rast gəlinmədi. İllərlə Azərbaycan rəhbərliyi müxtəlif beynəlxalq təşkiatlarda Azərbaycan və azərbaycanlıların təbii haqq və hüquqlarından danışdılar, lakin avropalı riyakarlar və ikiüzlülər sanki kar və kor oldular. Yenə də ancaq “ermənilərin hüququ”, “ermənilərin təhlükəsizliyi” deyərək bağırıb durdular! “Azərbaycanlı qaçqın və məcburi köçkün” ifadəsi dilə belə gəlmədi. Ona görə yeni holokostlar ola bilər! Antisemitizmin hazırkı Avropaya təzahürü nədir ki..?

Bizlər heç zaman irqçi olmadıq, olmarıq da. Nə tariximiz, nə dövlət tərbiyəmiz, nə mədəniyyətimiz, nə də dinimiz buna yol vermir! Bundan sonra da irqçi olmayacağıq! Bununla yanaşı, biz islamofobiyanı qınadığımız kimi, antisemitizmi də qəbul etmirik! Azərbaycan müxtəlif irqlərin, dini konfessiyaların və etnosların dinc birgəyaşam modelini dəstəkləyən dövlət və cəmiyyətdir!

İrqçi olmadığımızdan bəşəriyyətin sürükləndiyi dalanda nəfəsimiz daralmır... Biz yenə də insanlığın, sülhün, barışın, dinc və yanaşı yaşamanın qələbəsi üçün çalışacağıq!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Tarixi yaradanlar: Məmməd Əmin Rəsulzadə

**“Altun Kitab” nəşriyyat evinin “Tarixi yaradanlar” silsilə nəşrlər toplusuna yeni bir kitab da əlavə edildi. Geniş oxucu auditoriyasına təqdim edilən və elmi-publisistik dildə qələmə alınan yeni kitab Azərbaycan Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadəyə həsr edilib.**

Bütün böyük və tarixi şəxsiyyətlər kimi, onunla da bağlı fərqli mülahizələr və cavabını gözləyən çoxsaylı suallar ortaya çıxmış, marksist-leninçi ideoloqlar davamlı olaraq haqqında qeyri-müəyyən fikirlər yaratmağa çalışmışlar. Amma nə onun tarix qarşısındakı xidmətlərini gizlətməyə, nə də şəxsiyyətinin miqyasını kiçiltməyə gücləri çatmamışdır. Hətta 70 il dünyanı vahimələr içərisində yaşadan “nəhəng” sovet rejimi adını kitab-dəftərdən silməyi bacarsa da, tarixin səhifələrindən silə bilməmişdir. Bu gün ancaq nisgilli bir təəssüf hissləri ilə qeyd etmək olur ki, böyük istiqlal mücahidinin vəfatını Ankara radiosu 1955-ci ilin 7 martında dərin bir hüznlə dünyaya yayanda Türkiyədə və Avropada yaşayan Qafqaz mühacirləri, eləcə də türk-müsəlman dünyası böyük bir üzüntü yaşayanda, yalnız doğma Vətəni Can Azərbaycandan, bir az da dəqiq desək, Sovet Azərbaycanından səs çıxmamışdı...




Bu və bu kimi onlarca sualların niyəsini də Qulu Məhərrəmlinin “Məmməd Əmin Rəsulzadə” kitabında tapmaq olar. Qeyd edək ki, Azərbaycan elmi ictimaiyyətinin, çoxsaylı tamaşaçı və oxucuların yaxşı tanıdığı jurnalist və tədqiqatçı, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli bir çox elmi araşdırmaların və dərs vəsaitlərinin müəllifidir. Onun geniş oxucu auditoriyası üçün nəzərdə tutulan yeni kitabında istiqlal mücahidi Məmməd Əmin Rəsulzadənin həyatı və şəxsiyyəti ilə bağlı bir-birindən maraqlı faktlar, yeni məlumat və mülahizələr yer alır. Əminik ki, tarixi faktlar və sənədlər əsasında qələmə alınan bu kitab Azərbaycan Cümhuriyyətinin banisini oxuculara daha yaxından tanıdacaq və sevdirəcək.

***XQ***

# Qısa filmlərin böyük auditoriyası

**Noyabrın 10-dan Nizami Kino Mərkəzində XIV Bakı Beynəlxalq Qısa Filmlər Festivalı keçirilir. Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi festivalın rəsmi tərəfdaşı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kino Agentliyidir. Festivalın dəstəkçiləri Nizami Kino Mərkəzi, “Azərbaycanfilm” kinostudiyası, Dövlət Film Fondu, “British Counsil”, Azərbaycan Prodüserlər Gildiyası, Yunus Əmrə İnstitutudur.**

Bakı Beynəlxalq Qısa Filmlər Festivalının direktoru Fehruz Şamıyev XQ-nə festivalda yer alan filmlər haqqında məlumat verdi. O, Azərbaycanın Vətən müharibəsində qazandığı zəfərin çəkilən filmlərdə öz əksini tapacağını dedi: – “Həmişə düşünmüşəm ki, hər il bu festivalı keçirəndə bizimçün daha rahat olacaq. Amma heç də belə deyilmiş. Hər dəfə bu həyəcanı yenidən yaşayırıq. Amma bu gərginliyin içində bir qələbə mesajı gizlənir. Təkcə vətənpərvərlik mövzusunda yox, həm də müəllif kinosunda qələbənin təsirləri hiss olunur. Biz öz filmlərimizi dünyaya ürək açıqlığı ilə çıxara biləcəyik. İnanırıq ki, bu festival kino sənayesinin inkişafına, az da olsa, təkan verəcək”.

Beynəlxalq Qısa Filmlər Festivalına 78 ölkədən 704 film göndərilib. Mütəxəssislərdən ibarət Seçim Komissiyası bu filmlərin arasından Beynəlxalq, “Asiya istedadları” və Yerli müsabiqədə həmçinin, “Cinemobil”də yarışan ekran əsərlərini müəyyənləşdiriblər. Beynəlxalq müsabiqədə 32 ölkəni təmsil edən 42 film, “Asiya istedadları”nda 17 film, Yerli müsabiqədə isə 26 film festivalın əsas mükafatı sayılan “Qızıl Nar” uğrunda mübarizəyə qoşulub.

Bu il müsabiqənin filmlərini “Qızıl Pəri” mükafatçısı, nüfuzlu kinofestivallarda mükafatlar qazanan Yavər Rzayev, Berlinali mükafatçısı, Moskva, Avrasiya, Varşava Film Festivallarının baş mükafatçısı, rejissor-prodüser Fərhad Şərifov, tanınmış ssenarist Rulof Yan Minnebu qiymətləndirəcəklər. “Asiya istedadları”nın münsiflər heyətində Baykonur Beynəlxalq Film Festivalının proqram direktoru, kinotənqidçi Ercan Cumabəyov, Azərbaycan yazıçısı, ssenarist Şərif Ağayar, bir sıra beynəlxalq kinofestivalların qalibi, rejissor, ssenarist Ramin Fərzaneh var. Yerli müsabiqədə yarışanları əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Azərbaycan Jurnalistlər Birliyinin rəhbəri, “Ayna”-“Zerkalo” qəzetlərinin təsisçisi və baş redaktoru Elçin Şıxlı, müasir Azərbaycan kinosunun tanınmış rejissorlarından Nadir Mehdiyev qiymətləndirir. Festivalda yer alan yerli və xarici qısa filmlər hər gün saat 11:00-dan Nizami Kino Mərkəzində nümayiş olunur.

Festivalın müsabiqədənkənar maraqlı bölmələri də var. “British Council”la əməkdaşlığın nəticəsi olaraq festival çərçivəsində İngiltərə Kino və Televiziya Sənətləri Akademiyası tərəfindən verilən dünyanın ən məşhur mükafatı – BAFTA namizədlərinin xüsusi nümayişi olub. Nümayişdə proqram çərçivəsində göstərilən “Baziqaqa” filminin rejissoru Co İnqabir Moyis də iştirak edib. Festivalın “Dili bizim” bölümündə dünyanın müxtəlif ölkələrində yaşayan həmyerlilərimizin Azərbaycan dilində çəkdikləri filmlər göstərilir. Azərbaycan kinosunun 125 illiyinə həsr olunan “Retrospektiv”də müxtəlif dövrlərə aid beş qısa film – Zaur Məhərrəmovun “ Bakı eyvanları”, Nicat Feyzullayevin “Yaşa, qızıl balıq”, Həsən Seyidbəylinin “Cazibə qüvvəsi”, Arif Məhərrəmovun “Münəccimin şagirdi”, Rüfət Əsədovun “Vahimə” ekran əsərləri göstərilir. Festival müddətində qrafik dizayner Rəsul Həsənin “Kinoda süni intellekt texnologiyasının tətbiqi” adlı mühazirəsi dinlənilib.



Beynəlxalq Qısa Filmlər Festivalına gələn Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Auld XQ-nə qısametrajlı filmlərin əhəmiyyətindən danışıb: “Mən qısametrajlı filmləri çox sevirəm. Bu festivalda Britaniya filmlərinin nümayişini təşkil etdiyinə görə, “British Council”-a minnətdaram. Dörd gözəl və müxtəlif qısametrajlı filmi bu festivalda görəcəyik. Azərbaycan dilini öyrənərkən Azərbaycan filmlərinə baxmağı sevirdim”.

Festival çərçivəsində Azərbaycan kinosunun 125 illiyi münasibətilə “Azərbaycan kinematoqrafiyasında xidmətlərinə görə” Azərbaycan Film Fondunun direktoru, kinorejissor Cəmil Quliyev, dublyaj sahəsində xidmətlərinə görə Əməkdar artist Nəcibə Hüseynova, müəllif kinosunun inkişafındakı xidmətlərinə görə Əməkdar incəsənət xadimi, kinorejissor Elçin Musaoğlu “Qızıl nar” mükafatı ilə təltif ediliblər.

Daha sonra festivala təqdim olunan yerli və xarici filmlərin kollajından ibarət videoçarxlar, eyni zamanda Britaniya Film və Televiziya Sənətləri Akademiyasının “Bafta” mükafatına, bu il ən yaxşı qısametrajlı bədii film nominasiyasında “Oskar” mükafatına layiq görülmüş “İrlandsayağı vida” filmi nümayiş olunub.

Festival qaliblərinin mükafatlandırılma mərasimi bu gün saat 19:00-da Nizami Kino Mərkəzində keçiriləcək.

***R.QURBANLI***
***XQ***

# IX Bakı Beynəlxalq Kitab Sərgisi başa çatır

**Paytaxtımız növbəti beynəlxalq kitab bayramına evsahibliyi edir. 2009-cu ildə əsası qoyulan Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimində elm adamları, səfirlər, millət vəkilləri, ölkənin tanınmış mədəniyyət xadimləri, eləcə də kitabsevərlər iştirak ediblər.**

Açılış mərasimindəki çıxışında Mədəniyyət naziri Adil Kərimli 9-cu Kitab Sərgisinin Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunduğunu deyib: “Ulu öndər hər zaman kitaba, kitab sənayesinin inkişafına böyük diqqət göstərirdi. Dahi siyasətçi nəşriyyat işinin inkişafına hər zaman qayğı ilə yanaşırdı. Prezident İlham Əliyev tərəfindən ölkəmizdə ədəbiyyat sahəsinə, kitab sənayesinə, bütövlükdə nəşriyyat sahəsinə ciddi dəstək verilir. Kağız idxalının və istehsalının ƏDV-dən azad olunması, eləcə də hər il bir çox ölkələrdə Azərbaycanın kitab mədəniyyətinin təbliğinə şərait yaradılması da bu diqqətin təzahürüdür”.

Tədbirdə çıxış edənlər – AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, millət vəkilləri, akademik Nizami Cəfərov, Fazil Mustafa, ombudsman Səbinə Əliyeva, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid sərginin əhəmiyyətindən danışıblar. **Rusiya Federasiyasının ölkəmizdəki səfiri Mixail Yevdokimov Bakı Beynəlxalq Kitab Sərgisini Cənubi Qafqazın ən böyük ədəbi tədbiri kimi dəyərləndirib:** “Bu il ilk dəfə sərgidə fəxri qonaq kimi iştirak edirik. Bunun üçün Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkür edirik. Təxminən, 100 kvadratmetr sahəsi olan Rusiya stendinin rəflərində həm klassik, həm də müasir əsərlər yer alıb. Sərgidə Rusiyanın 30 nəşriyyatı təmsil olunur. Əminəm ki, Bakı Beynəlxalq Kitab Sərgisi Rusiya və Azərbaycan arasında mədəni əlaqələrin daha da möhkəmləndirilməsinə mühüm töhfə verəcək”.

“Caspian Event Organisers” şirkətinin tərəfdaşlığı ilə gerçəkləşən sərgidə “Zəfər”, “Şuşa” və “Xudafərin” adlı üç təqdimat zonası da fəaliyyət göstərir. Sərginin 3-cü günü “Zəfər” təqdimat zonasında gürcü yazıçısı Nana Ekvtimişvili ilə görüş keçirildi. Görüşdən sonra XQ-nə açıqlama verən yazıçı dedi ki, sərgi və görüş yüksək səviyyədə hazırlanıb: “Mən Azərbaycan oxucusu ilə görüşdən çox razı qaldım. Sizin yazıçıları oxumuşam, tanıyıram. Sizin oxucular da bizi tanıyır, mənə azərbaycanlı oxuculardan mesajlar gəlir”.

**Uşaq yazıçısı Zahid Xəlil bizimlə söhbətində kitab sərgisinin ən böyük bayram olduğunu vurğuladı:** “Başqa bayramlarda yeməklə qidalanırıq, kitab sərgisində isə kitabla. Bu gün çox sevinirəm ki, gənc nəsil kitaba, ədəbiyyata qayıdıb. Artıq 9-cu dəfə keçirilən kitab sərgisinin əhəmiyyəti həm də o cəhətdən böyükdür ki, gəncləri bura toplayıb onları kitaba cəlb edir”.

M.F. Axundaov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov: “Sərgidə 12 ölkədən nümayəndələr, nəşriyyatlar iştirak edir. Ziyarətçi çoxdur. Bir kitabxanaçı kimi gənclərin kitab almaq üçün növbəyə dayanmaları məni çox sevindirir. Kitabla dost olan uşağın gələcəyi parlaq olar. Sərgi boyu tədbirlər keçiririk, hər gün bir neçə tədbir olur. Hamısı da gur keçir. 3 ekspozisiya zalı kifayət etmir. Ulu öndərin 100 illiyinə həsr edilmiş, Milli kitabxanamızın 100 illiyi ilə bağlı xüsusi ekspozisiyalarımız var. Təqdimatlarımız çox olur. Dünən Özbəkistan ədəbiyyatının 100 cildliyinin təqdimatı oldu. Əsas odur ki, ziyarətçilər sərgiyə könüllü gəlir və kitab alırlar”.




**Yazıçı İlqar Fəhmi deyir ki, ilk sərgilər tərəddüd və narahatlıq içində keçirilirdi. Yəni, alınar, yoxsa alınmaz. Amma bu dəfə heç bir tərəddüd olmadı:** “Əvvəlki sərgilərdən təcrübəmiz var idi ki, oxucular, yazarlar gözləyir. Beş gün ərzində geniş bir sahə kitabsevərlərin ixtiyarına verilir. Düşünürəm ki, kitab sərgisi Azərbaycanın humanitar sahədə beynəlxalq səviyyədə təşkil etdiyi ən böyük və uğurlu layihələrdən biridir. Davamlı olsun”.

**Yazıçı Şərif Ağayarın fikrincə, Qarabağ müharibəsindən sonra Azərbaycan dünyaya mədəniyyəti və ədəbiyyatı ilə çıxmalı və tanınmalıdır:** “Bunun da əsas yollarından biri kitab sərgisidir. Bir xalq keçirdiyi kitab sərgisi qədərdir. Kitab sərgisi xalqın mədəniyyətinin ifadəsidir. Bu sərgi gələcəklə bağlı böyük ümidlər yaradır. Arzu edirəm bu sərgilər ildən-ilə genişlənsin və bütün gücümüzü kitab ətrafında səfərbər edək. Azərbaycan kitabı layiq olduğu məqama yüksəlməlidir. Bu sərgi həmin istiqamətdə ciddi addımdır”.

***Q.RAMİLƏ***
***XQ***


## ÜÇÜNCÜ BİLDİRİŞ – LPO “Muğanbank” ASC də qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi barədə məlumat

Bakı Apellyasiya Məhkəməsinin 24 oktyabr 2023-cü il tarixli 2-3(103)-54/2023 saylı qərarı ilə “Muğanbank” ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi təyin edilmişdir. Həmçinin, “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq “Muğanbank” ASC-də sığorta hadisəsi günü 24 noyabr 2023-cü il müəyyən edilmişdir.

AZƏRBAYCAN ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU

Bildiririk ki, kompensasiyaların ödənilməsi “Azərbaycan Beynəlxalq Bankı” ASC və “Kapital Bank” ASC vasitəsilə 27 noyabr 2023-cü il tarixdən başlayaraq həyata keçiriləcəkdir. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 28.3-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir.

Qorunan əmanətçilər əmanət hesabları üzrə hesabdan çıxarışları ləğv prosesində olan “Muğan Bank” ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli 21B ünvanında yerləşən baş ofisindən əldə edə bilərlər.

Əmanətçilərdən kompensasiyaların alınması üçün “Azərbaycan Beynəlxalq Bankı” ASC və “Kapital Bank” ASC-nin istənilən filial və şöbələrinə müraciət edərkən kompensasiyaların ödənilməsi prosedurlarına uyğun olaraq ərizəyə əmanət müqaviləsi, əmanət kitabçası, yaxud qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmanəti təsdiqləyən digər sənədlər və onların surəti, habelə əmanətçinin şəxsiyyətini təsdiq edən sənədin təqdim edilməsi xahiş olunur. Həmçinin bildiririk ki, kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, qeyd edilən sənədlərlə yanaşı əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni təqdim etməlidir.

Qorunan əmanətçilər ərizə formalarını 27 noyabr 2023-cü il tarixdən etibarən “Azərbaycan Beynəlxalq Bankı” ASC və “Kapital Bank” ASC-nin filial və şöbələrindən, eyni zamanda ƏSF-nin www.adif.gov.az saytından əldə edə bilərlər. əldə edə bilərlər. Kompensasiyaların ödənilməsi “Azərbaycan Beynəlxalq Bankı” ASC və “Kapital Bank” ASC-nin bütün filial və şöbələri tərəfindən həyata keçiriləcəkdir.

Məlumat üçün qeyd edək ki, əmanətlər “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kompensasiya olunacaq. Belə ki, sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 (bir yüz) min manatdan çox olmamaqla, fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə kompensasiya məbləği 20 (iyirmi) min manatdan çox olmamaqla, notariusların depozit hesablarında olan fiziki şəxslərə məxsus pul vəsaitləri üzrə kompensasiya isə həmin pul vəsaitlərinin 100 faizi həcmində ödəniləcəkdir.

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

**www.adif.gov.az**



## Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC

*Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminin təşkilinin satın alınması məqsədilə*

## TƏKLİFLƏR SORĞUSU ELAN EDİR

Lot – 1. Beynəlxalq Avtomobil Federasiyasının Baş Assambleyasının iclası və mükafatlandırma mərasiminin təşkilinin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif olunur ki, öz təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə, həmçinin elektron portal vasitəsi ilə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (əlaqələndirici şəxs- Əhməd Məmmədov, telefon - 496-52-05).

İştirak haqqı 500 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

Malgöndərənlər (podratçılar) tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.
2. Tender təklifinin qüvvədə olma müddəti zərflərin açılış tarixindən sonra azı 30 bank günü olmalıdır.
3. Tender təklifinin təminatı, tender təklifinin qüvvədə olma müddətindən sonra azı 30 bank günü olmalıdır.
4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı.
5. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış.
6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.
7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti.
8. İddaiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd (Statistika Komitəsindən).
